Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5
SENTYABR
2019-cu il

№ 156 (4054)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PATRUŞEVİN İRƏVANA VƏ BAKIYA TAM FƏRQLİ MƏZMUNLARDA İKİ SƏFƏRİ...

■ səh. 10 ■



■ səh. 3 ■

## Rusiya və Azərbaycanın Təhlükəsizlik şuraları katiblikləri arasında əməkdaşlığın yeni mərhələsi başladı

Azərbaycan Paşinyanın son bəyanatlarla müharibəni tətiklədiyini dünyanın diqqətinə çatdıra bildi... ■ səh. 9 ■

Qarabağ erməniləri separatçı rejimə qarşı qiyama qalxa bilər... ■ səh. 11 ■

Qaz məsələsi Avropanı iki qütbə ayırdıqca hər tərəfdə Azərbaycan qazına ehtiyac artır... ■ səh. 12 ■

Əli Kərimli əsl siyasi liderlərə xas keyfiyyətlərin hansı hissəsini yerinə yetirə bilir... ■ səh. 5 ■

Putinin təbriki İrəvanda Köçəryan tərəfdarlarını fəal siyasətə topladı ■ səh. 8 ■

Azərbaycan kommunistlərinin liderini Venesuela hakimiyyətinə bağlayan nədir... ■ səh. 12 ■

DOST nə az, nə çox - 40 min işsizə iş verib ■ səh. 13 ■

"Paris Bistro" - qızsız gələn oğlanlardan əlavə 25 manat almaq məsələsinə restoran necə reaksiya verdi... ■ səh. 15 ■





Radikalların Prezidentin qondarma xəstəlik sindromu ilə qeyri-siyasi və qeyri-etik oyunlar qurmaq cəhdi... ■ səh. 5 ■

Radikalların 93-də işğal olunmuş torpaqların məsuliyyətini Heydər Əliyevin üzərinə atmaq cəhdi... ■ səh. 7 ■

Ermənistanda ictimai-siyasi fikir Avrasiya İqtisadi Birliyindən tam uzaqlaşıb - Rusiyaya ciddi siqnal... ■ səh. 11 ■

■ səh. 8 ■
Əli Həsənov Əli Kərimlinin dəstəsinin 93-cü ildəki hadisələrin məsuliyyətindən qaçmaq cəhdlərinə daha bir ifşaedici şərh verdi...



■ səh. 4 ■
Yardımlı sakini Vilayət Eyvazova niyə təşəkkür etdi...



■ səh. 2 ■
"Dövlətçilik təəssübkeşliyini və peşəkarlığı hər şeydən üstün tutan qəzet yaratdıq"



■ səh. 3 ■
İfrat rus faşisti Şişkinə tək Ermənistan sığınacaq verdi...



■ səh. 15 ■
Yas mərasimlərində daha bir mütərəqqi yenilik - yemək ləğv olunur





# Prezident İlham Əliyev Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzaladı

**Prezident İlham Əliyev Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

2019-cu ilin dekabr ayında Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, görkəmli rəqs ustası, respublikanın Xalq artisti Əminə Paşa qızı Dilbazinin anadan olmasının 100 illiyi tamam olur. Əminə Dilbazi Azərbaycan rəqs sənətinin çoxəsrlik ənənələrinin qorunub yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Sənətkar uzunmüddətli fəaliyyəti ərzində daim yüksək səhnə mədəniyyəti nümayiş etdirmiş, fitri istedadı və bənzərsiz ifaçılıq imkanları sayəsində xalq rəqslərinin qiymətli nümunələrinə yeni çalarlar qazandıraraq onları orijinal ifa tərzi ilə xeyli zənginləşdirmişdir. Rəngarəng repertuarında, eyni zamanda, dünya xalqlarının rəqslərinə geniş yer ayıran Əminə Dilbazinin mötəbər beynəlxalq müsabiqə və festivallardakı uğurlu çıxışları Azərbaycan incəsənətinin çoxsaylı nailiyyətləri sırasındadır. O, kinofilmlərdə, teatr tamaşaları və opera əsərlərində rəqslərə yüksək məharətlə quruluş vermiş, eləcə də professional rəqs qruplarının bədii rəhbəri kimi tanınmışdır. Əminə Dilbazinin, həmçinin xoreoqrafiya sənətinin incəliklərinin gənc nəslə öyrədilməsi istiqamətində fəaliyyəti təqdirəlayiqdir. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Əminə Dilbazinin 100 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlayıb həyata keçirsin.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.



# Vüqar Səfərli ikinci binada yaşayan jurnalistlərə "kupça"ların yaxın müddətdə veriləcəyini bəyan etdi

**Jurnalistlər üçün istifadəyə verilən ikinci binada yaşayanlara yaxın müddətdə "kupça"lar veriləcək. Bunu özəl olaraq "Trend"ə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli jurnalistlər üçün inşa olunmuş 2-ci binadakı mənzillərin xidməti ev kimi olması ilə bağlı fikirlərinin səhv anlaşılmasına münasibət bildirərkən deyib.**

Onun sözlərinə görə, bu binalardakı mənzillər dövlətin əmlakıdır: "Müsahibədə mən bu evlərin xidməti evlər kimi olduğunu demişəm. "Xidməti ev" və "xidməti ev kimi" ifadələri bir-birindən fərqlənir. Xidməti evə görə order, sənəd verildikdə, həmin mənzilin xidməti ev olduğu qeyd edilir. Lakin Fondun Müşahidə Şurasının qərarı, Prezident Administrasiyasının töhfəsi ilə o evlər jurnalistlərə verilib. Avqustun 8-də biz binanın istismara qəbul edilməsi ilə bağlı dövlət aktını almışıq. Hazırda Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə sənədləşmələrlə bağlı işlər aparılır. Birinci bina üçün də prosedurlar belə olub. Bu bina hələ dövlətin balansındadır və dövlətin əmlakıdır".

V.Səfərli həmin mənzillərin jurnalistlərdən geri alınacağı ilə bağlı narahatlığın olmadığını da söyləyib: "Yazırlar ki, bu mənzillər xidməti ev olduğu üçün onları istənilən zaman jurnalistlərdən geri ala bilərlər. Xeyr, bu, xidməti ev deyil.

**Bu mənzillər hazırda xidməti ev kimidir və yaxın müddətdə mənzil sahiblərinə "kupça"lar veriləcək. Heç bir ev geri qaytarıla bilməz. Bu, Prezidentin jurnalistlərə hədiyyəsidir".**



# Aydın Quliyev: "Dövlətçilik təəssübkeşliyini və peşəkarlığı hər şeydən üstün tutan qəzet yaratdıq"

**"Bakı-Xəbər" ölkədə qəzet bolluğu ərəfəsində yaransa da, kütləvi informasiya vasitələrinin alternativ növlərinin hələ o qədər də inkişaf etməməsi ona öz yerini tutmaqda geniş imkanlar açdı.**

Bunu "Trend"ə "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktor qəzetin yaranması və bu günə qədər uğurlu fəaliyyətində rəhbərlik etdiyi kollektivin böyük əziyyətlər çəkdiyini bildirib: "Qəzetimizin formalaşması şəxsi əməyin və zəkanın deyil, kollektiv işin nəticəsidir. Bu uzun və çətin yolda dostlarımın, əməkdaşlarımızın hər biri əlindən gələni əsirgəmədən əsl fədai əməyi və yaradıcılıq potensialı nümayiş etdirərək "Bakı-Xəbər"i yaratdılar. "Bakı-Xəbər"i təsis etmiş dəyərli qələm dostlarımın az bir hissəsi bu gün bu doğma ocaqda fəaliyyətini davam etdirir, digər çoxsaylı hissəsi isə özlərinin müxtəlif zamanlarda yaratdığı mətbu orqanlara rəhbərlik edir. Bir vaxtlar mənimlə çiyin-çiyinə bu qəzeti yaradan dəyərli dostlarımın baş redaktora çevrildiklərini, onların istedadlı jurnalist olmaqla bərabər, həm də bacarıqlı administratorlar olduğunu görmək məni həqiqətən qürurlandırır. Biz "Bakı-Xəbər"i öz dəst-xətti olan məktəbə çevirdik, media aləsində öz yerini tuta bilən bir qəzet yaratmaqla bərabər, bu məktəbi həm də baş redaktorlar yetişdirən özünəməxsus təhsil müəssisəsinə çevirməyi bacardıq".

A.Quliyev əlavə etdi ki, bu gün "Bakı-Xəbər"in adı ilə bağlı olan bütün jurnalistlərin bu əlamətdar gündə sevinməyə və qürur duymağa haqqı var: "Biz bütün peşə çətinliklərini birlikdə aşmağı bacardıq, dövlətçilik təəssübkeşliyi və peşəkarlığı hər şeydən üstün tutan qəzet yaratdıq. Bu redaksiyada işləyən hər kəs "Jurnalist öncə vətənpərvər və dövlətçi, sonra peşəkar olmalıdır"! həqiqətinin gücünə inandı və bunu özünün həyat kredosuna çevirdi. Mənim qədər sevinməyə və qürur duymağa haqq etmiş keçmiş və indiki əməkdaşlarımızı, diqqətli dostlarımızı, sadiq oxucularımızı təbrik edirəm. Böyük yolumuzun davamı da uğurlu gəlsin".

**Qeyd edək ki, dünən "Bakı-Xəbər" qəzetinin 16 yaşı tamam oldu.**



# Zaxarova doğru dedi - Dağlıq Qarabağla bağlı bəyanatlar münaqişənin nizamlanmasında məqsədə daha tez çatmağa xidmət etməlidir

**Dağlıq Qarabağla bağlı bəyanatlar münaqişənin nizamlanmasında məqsədə daha tez çatmağa xidmət etməlidir.**

"Trend"in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ötən ayın əvvəlində Ermənistanın baş naziri Nikol Paşinyanın təxribatçı açıqlamalarını şərh edərkən deyib.

M.Zaxarova bildirib ki, bu cür bəyanatlar nifaqa səbəb olur və danışıqlar prosesinə əlavə suallar gətirir: "Bu cür bəyanatlar həssas danışıqlar prosesinin balansını poza bilər. Çox istərdik ki, tərəflər əsas məqamı rəhbər tutsunlar, bütün resursları dinc nizamlanmaya yönəltsinlər. Proses mürəkkəbdir və uzundur, fikrimcə, tərəflər daha tez irəliləməyin lazım olduğunu anlayır və bunun üçün bəyanatlar müvafiq olmalı, bu məqsədə xidmət etməlidir".

# Rusiya və Azərbaycanın Təhlükəsizlik şuraları katiblikləri arasında əməkdaşlığın yeni mərhələsi başladı

*Ramil Usubov TŞ-nın katibi postunda ilk rəsmi görüşü Patruşevlə keçirdi, katibliklərin aparatları əməkdaşlıq edəcək, sərhədlərdə birgə layihələr... İnformasiya təhlükəsizliyinə xüsusi önəm...*

**Bakıda Azərbaycanın Təhlükəsizlik Şurasının katibi Ramil Usubovla rusiyalı həmkarı Nikolay Patruşev arasında görüş keçirilib.**

"Trend"in məlumatına görə, görüşdə iki ölkə arasında təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr baş tutub.

Sputnik Azərbaycan xəbər verir ki, Rusiyanın Təhlükəsizlik Şurasının mətbuat xidməti də görüş barədə məlumat yayıb. Görüşdə N.Patruşev R.Usubovu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib. O, Rusiya ilə Azərbaycan arasında təhlükəsizlik şuraları aparatları, güc strukturları və hüquq-mühafizə orqanları xətti vasitəsilə sıx əlaqələrin davam edəcəyinə əminliyini vurğulayıb.

Patruşev iki ölkə arasında iqtisadi və humanitar əməkdaşlığın tempinin yüksək olduğunu qeyd edərək, Rusiya-Azərbaycan sərhədində birgə infrastruktur layihələrin və hərbi-texniki əməkdaşlığın gələcək inkişafının reallaşdırılmasının vacibliyini bildirib.

R.Usubovla N.Patruşev arasında keçirilən danışıqlarda terrorçuluq və ekstremizmlə mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə, o cümlədən informasiya təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlığa xüsusi diqqət ayrılıb.

Göründüyü kimi, İrəvan səfərindən sonra Bakıya gələn Patruşevin Prezident İlham Əliyev və TŞ katibi Ramil Usubovla görüşləri İrəvandakından xeyli fərqli məzmun kəsb edir. Xüsusilə onu qeyd edək ki, Azərbaycan TŞ katibi Ramil Usubov bu vəzifəyə təyin olunandan sonra ilk rəsmi görüşünü keçirib və diqqət çəkən məsələlər barədə müzakirə aparıb. Ramil Usubovun Azərbaycan Prezidentinin iradəsi ilə müzakirə etdiyi məsələlərin xarakteri bir daha göstərir ki, Ermənistanla Rusiyanın ali rəhbərliyi və müvafiq strukturları arasında çox ciddi problemlərin yaşandığı bir vaxtda Azərbaycan-Rusiya münasibətlərində fərqli dinamikanın şahidi oluruq. Bütün bunlar Azərbaycan Təhlükəsizlik Şurası ilə Rusiya TŞ-nın əməkdaşlığının dərinləşdirilməsi istiqamətində yeni mərhələnin başlandığını deməyə əsas verir. Görüş barədə informasiyalardan çıxan mühüm mesajlardan biri Azərbaycan və Rusiya TŞ katiblikləri aparatlarının yaxın əməkdaşlığı ilə bağlıdır. Bu, Azərbaycan TŞ katibliyinin Aparatının daha da təkmilləşdirilməsi istiqamətində davamlı addımların atılacağından xəbər verir.

Sərhədlərdə birgə layihələrin reallaşması, hərbi-texniki sahədə əməkdaşlıqların genişləndirilməsi barədə danışıqlar da yeni səhifələrin açılacağı barədə nəticə çıxarmağa əsas verir.



İnformasiya təhlükəsizliyi sahəsində əməkdaşlığın genişləndirilməsi Rusiya-Azərbaycan münasibətlərində ehtiyac hiss olunan məsələ kimi dəyərləndirilə bilər. Terrorizm və ekstremizmlə mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi indiki şəraitdə xüsusilə perspektivli görünür.

Unutmayaq ki, Azərbaycan Ermənistanın təcavüzkar və terrorçu siyasətindən hələ də əziyyət çəkən ölkədir. Belə şəraitdə terrorla mübarizədə Azərbaycanın beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsi həqiqətən böyük perspektiv vəd edir. Regionumuzda fəallaşmağa çalışan İŞİD, "Əl-Qaidə" terroruilə, çoxdan mövcud olan erməni terroru ilə mübarizədə Rusiya-Azərbaycan əməkdaşlığının davamlı gücləndirilməsinə həqiqətən ehtiyac var.

***Baki-xeber.com***

# İfrat rus faşisti Şişkinə tək Ermənistan sığınacaq verdi...

**Ermənistanın Miqrasiya Xidməti Rusiya müxalifətçisi, ultrasağçı radikal Vitali Şişkinə qaçqın statusu və sığınacaq verib. Xidmətin bu barədə bəyanatında deyilir ki, Rusiya Federasiyasına qaytarılacağı təqdirdə Şişkinin həyatına real təhlükə yarana bilərdi.**

Şişkin özü isə bu haqda belə deyib: "Mən Ermənistanda qaçqın statusunu Rusiyada siyasi motivlərlə təqib olunduğuma görə almışam. Qaçqınlığın müxtəlif növləri var. Məsələn, müharibə qaçqını kimi. Amma mən əvvəlcədən keçmiş siyasi məhbus kimi siyasi sığınacaq almağa çalışırdım".



Şişkin 2019-cu ilin yanvarında həbsxanadan çıxan kimi Ermənistana gəlib. Özünün dediyinə görə, siyasi motivlərlə həbs olunaraq 4 il həbsxanada saxlanıb: "Mənim xarici pasportumun müddəti qurtarmışdı. Mən yeni pasport almaq istəyəndə pasport masasındakı qızlar mənə dedilər ki, mənə pasport müstəsna olaraq Federal Təhlükəsizlik Xidməti tərəfindən verilə bilər. Buna görə də mən Ermənistandan başqa heç yerə gedə bilməzdim. Burada bir il əvvəl çox gözəl hadisələr baş vermişdi. Mən də düşündüm ki, indi bura əvvəlkindən tamamilə fərqli ölkədir".

Şişkinin dediyinə görə, ona hazırda Rusiyada axtarış elan olunub. Lakin Ermənistan Baş Prokurorluğundan bildiriblər ki, Şişkin bu axtarış əsasında aşkar olunub həbs edilmədiyinə görə onun təslim edilməsi barədə heç bir ölkədən müraciət olunmayıb.

Bununla belə, Rusiya müxalifətçisi deyir ki, Ermənistana gəldiyi günün ertəsi vətənində ona qarşı bir neçə maddə üzrə ittiham irəli sürülüb. Şişkin bildirir ki, bu ittihamlardan biri də onun qanunsuz olaraq Ermənistana gəlməsidir.

İndiki statusla Şişkin Ermənistandan başqa ölkəyə gedə biləcək. Ermənistanın Miqrasiya Xidməti Şiskin barədə təfərrüatlı məlumat vermək istəməyib. Xidmətdən bunun şəxsi informasiya olduğunu bildiriblər. Bildirilir ki, Ermənistan Respublikasının "Siyasi sığınacaq haqqında" Qanunu ilk dəfə Şişkinə tətbiq edilib.

## *Samir Adıgözəlli: "Paşinyan Şişkinlə bağlı məsələni ictimailəşdirməklə Putinə cavab reaksiyasını nümayiş etdirir"*

Vitali Şişkin Ermənistanda qaçqın pasportu ala və istədiyi xarici ölkəyə gedə bilər. Lakin o buna qədər Ermənistanda Qaregin Njdeyə həsr edilmiş kitabının təqdimatını təşkil edəcək. Vitali Şişkin Rusiyada dəfələrlə icazəsiz aksiyalar təşkil etdiyinə görə saxlanıb.

Göründüyü kimi, Ermənistan daha bir faşist təmayüllü şəxsə qucaq açır. Qeyd edək ki, bu, faşizmin Ermənistan tərəfindən dəstəklənməsinə dair ilk fakt deyil. Rəsmi İrəvanın ən qatı faşist olan Qaregin Njdeyə heykəl ucaltması da ortada olan faktlardan biridir. Qeyd edək ki, Njdeyə ucaldılan heykələ Rusiya etiraz etmişdi. Ermənistanın Rusiyadan didərgin düşən müasir faşistlərdən birinə siyasi sığınacaq verməsi nəyin göstəricisi sayıla bilər?

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın faşizmi dövlət səviyyəsində dəstəkləməsi birmənalıdır: "Onların Tələt Paşanın qatili olan Solomona və Hitlerin ən yaxın silahdaşlarından sayılan Njdeyə ucaltdıqları heykəllərə baxmaq kifayət edir ki, bu barədə təsəvvür yaransın. Onlar yalnız heykəllə kifayətlənmirlər, eyni zamanda, həmin təhlükəli elementlərin ideya müəllifi olduğu kitablardan təbliğat vasitəsi kimi istifadə edirlər. Njde ilə bağlı Ermənistanda film çəkilib, qalaq-qalaq kitablar yazılıb. Ermənistanın həmin əqidəyə niyə sahib çıxması öz dövlət siyasətindən aydın görünür. Ermənistan bəlkə də dünyada yeganə monoetnik ölkədir. Orada ermənilərdən başqa millətlərin nümayəndəsi yaşamır. Onların Dağlıq Qarabağda törətdikləri faciələr əlamətlərinə görə Osvensimdən, Xatından heç nəyi ilə fərqlənmir. Bütün bu əlamətlər faşizmə xasdır. Bu baxımdan da Ermənistanın Rusiyanın ən təhlükəli ultrasağ siyasətçilərindən birinə sığınacaq verməsi təsadüfi deyil. Bəllidir ki, Ermənistan elə ölkə deyil ki, ora siyasi mühacirlər üz tutsun. Əksinə, Ermənistanın öz əhalisi oradan qaçır. Şişkinlə bağlı yaranmış vəziyyətdə Ermənistanın Rusiyaya adekvat reaksiyasını da görmək olur. Yadınızdadırsa, bir neçə gün əvvəl Rusiya Prezidenti həbsdə olan Köçəryana yubiley təbriki ünvanladı. Bu, Ermənistanın siyasi hakimiyyətinə bir siqnal idi. İndi də Paşinyan Şişkinlə bağlı məsələni ictimailəşdirməklə Putinə cavab reaksiyasını nümayiş etdirir.

Yəni demək istəyir ki, sizin də siyasi rəqibiniz bizim əlimizdədir. Çünki Şişkin 6 aya yaxındır ki, Ermənistandadır. Hər halda, məsələnin məhz indi gündəmə çıxması maraqlı görünməyə bilməz. Yəni Şişkin məsələsində iki amil var. Birincisi, Ermənistanın dövlət səviyyəsində faşizm ideologiyasını dəstəkləməsi. İkincisi isə Putinin addımına adekvat cavab. İstənilən halda, bu, Rusiyanı qıcıqlandıra biləcək addımdır və yəqin ki, Ermənistana öz təsirini göstərəcək".

***Məhəmmədəli QƏRİBLİ***



# Yardımlı sakini Vilayət Eyvazova niyə təşəkkür etdi...

*Taleh Dadaşov: "Problem Daxili İşlər Nazirliyinin müdaxiləsindən sonra öz müsbət həllini tapıb"*

**"Bakı-Xəbər"in ictimailəşdirdiyi bir vətəndaşın problemi özünün müsbət həllini tapıb. Redaksiyamıza müraciət edən Yardımlı rayonu Solqard kənd sakini Valeh Hüseynli bildirmişdi ki, "Access Bank"ın Bakıxanov filialı ona çatacaq 2400 manat kompensasiyanı ödəmir.**

Valeh Hüseynli deyirdi ki, hazırda ölkədə olmadığı üçün vəkilinə etibarnamə verib, lakin bank Azərbaycan Konsulluğunun verdiyi etibarnaməni saxta hesab edir: "Hazırda ölkədə olmadığım üçün öncə vəkilim Fuad Şirinova etibarnamə göndərdim. Bank o etibarnaməni qəbul etmədi. Bankın tövsiyə etdiyi etibarnaməni hazırlayıb Azərbaycan Respublikasının Berlindəki Konsulluğunda rəsmiləşdirib qardaşım Dadaşov Taleh Əlisalam oğlunun adına göndərdim. Bu dəfə isə bank etibarnaməni tanımadı və saxta olduğunu iddia edir. Etibarnaməni verən orqan Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Konsulluğudur. Necə ola bilər ki, konsulluğun verdiyi etibarnaməni bank saxta saysın? Dəfələrlə banka rəsmi müraciət etsəm də, cavab verilmir".

Şikayətçi qeyd edir ki, yaranmış vəziyyətlə bağlı hüquq-mühafizə orqanlarına şikayət etmək məcburiyyətində qalıb. Həmin şikayətçinin qardaşı Dadaşov Taleh Əlisalam oğlu redaksiyamızla əlaqə saxlayaraq bildirib ki, məsələ ictimailəşəndən sonra problem Daxili İşlər Nazirliyinin müdaxiləsi nəticəsində öz müsbət həllini tapıb: "Biz məcbur qalıb məsələni ictimailəşdirdik. Həmin müraciətimizdə hüquq-mühafizə orqanlarına da müraciət etmişdik. Bundan sonra məni DİN-in nümayəndələri dəvət etdi. Qardaşımın göndərdiyi etibarnaməyə baxdılar və dedilər ki, problemlə yaxından maraqlanacaqlar. İki gündən sonra mənə zəng vurub bildirdilər ki, gedib bankdan pulumu götürə bilərəm. Gedən kimi bizə çatmalı olan 2400 manat kompensasiyanı kart yolu ilə hesabıma köçürdülər. Biz öz ailəmizin adından Daxili işlər naziri cənab Vilayət Eyvazova xüsusi təşəkkürümüzü bildiririk".

***Məhəmmədəli QƏRİBLİ***

# Emin Həsənli qardaş Türkiyənin vətənpərvər QHT-dən mühüm dəstək bəyanatları aldı...









**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emil Həsənli Türkiyədə səfərdədi.**

QHT rəhbəri "Bakı-Xəbər"ə açıqlamasında bildirib ki, səfər çərçivəsində bir sıra məhsuldar görüşlər keçirib: "Rum - Balkan Dərnəkləri Federasyonunun mənzil-qərargahında həmin qurumun rəhbəri ilə görüşümüz oldu. Bu Fedrasyon 55 dərnəyi özündə birləşdirir. Əsasən rum-balkan elindən olan türklər orda daha çox təmsil olunur. Onlar Atillanın zamanında, IV-V əsrlərdə rum-balkan elinə köçüblər. Bir də Osmanlı zamanında XV-XVI əsrlərdə Balkan elinə yerləşmiş türklərdi. Onların böyük əksəriyyəti birinci dünya müharibəsindən sonra Türkiyəyə köçüb. Dediyim dərnəklərdə ən çox həmin kateqoriyaya aid insanlar birləşir. Dərnək Türkiyədə çox böyük nüfuza malikdir. Bununla yanaşı, Avropada ciddi diaspor fəaliyyəti göstərir. Dərnəyin sədr müavini Şudeyif Çobanoğlu Azərbaycanda çalışıb. Ehtiyatda olan polokovnikdir, Naxçıvanda əsgəri ataşşe olub. Azərbaycan silahlı qüvvələrinin ilkin formalaşma mərhələsində ölkəmizdə böyük xidməti olub. Bizim əməkdaşlığımızdan çox məmnun oldu. Onalrın başqanını və idarə heyətinin üzvlərini Azərbaycana dəvət etdim, Azərbaycanın diaspor işinə dəstək verməyə hazır olduqlarını, həmçinin Dağlıq Qarabağla bağlı məsələni daima öz gündəmlərində saxlayacaqlarını bildirdilər. Onlar zaman-zaman köçə məruz qaldıqları üçün problemin mahiyyəti onlara yad deyil. Biz eyni zamnda onlarla Azərbaycan QHT-ləri ilə qarşılıqlı əməkdaşlığın zəruriliyini müzakirə etdik və bu istiqamətdə də ilkin razılıq əldə olundu. Mənim həmin dərnəkdə Azərbaycanın mövcud reallıqları ilə bağlı geniş çıxışım oldu. Mənə ünvanlanan sualları cavabladım. Hiss etdim ki, onların Azərbaycana marağı böyükdür. Hesab edirəm ki, ciddi diaspor imkanlarına malik olan bu dərnəyin imkanlarından geniş istifadə etməyimiz olduqca zəruridir".

***Məhəmmədəli QƏRİBLİ***

**Uzun müddət müxalifətdə düşdükləri tıxacdan çıxa bilməyən bəzi radikallar siyasət adı ilə bütün çirkin vasitələrdən istifadə edirlər. Bu üsulla xalqı çaşdırmağa çalışırlar. Bilirlər ki, reallığı danışanda xalq onlara inanmır, arxalarınca gəlmir. Məcburdurlar ki, özlərindən böhtan, sensasiya uydursunlar.**

# Radikalların Prezidentin qondarma xəstəlik sindromu ilə qeyri-siyasi və qeyri-etik oyunlar qurmaq cəhdi...

## *Aydın Mirzəzadə: "Belə metodlarla siyasi mübarizə heç bir cəmiyyətdə təqdir olunmur"*



Son bir həftə ərzində radikal müxalifətin, xüsusilə də Əli Kərimlinin əhatəsində olan kəsimi ölkə başçısının səhhəti ilə bağlı olmazın iftiralarını uydurdu. Onlar İlham Əliyevin efirdə bir neçə gün ərzində görünməməsini Prezidentin guya səhhətində ciddi problemlərin olması ilə əlaqələndirməyə çalışırdılar. Bu iyrənc üsuldan onlar ilk dəfə deyil ki, istifadə edirlər. Bütün parametrlər üzrə siyasi rəqiblərinə uduzanlar siyasə rəqabət imkanlarının tükəndiyini gördükləri üçün belə iyrənc təbliğat metodlarından yararlanmağa çalışırlar.

Hələ mərhum prezident Heydər Əliyevin sağ olduğu zamanlarda da onlar uzun müddət siyasətlərini həmin siyasətçinin səhhəti üzərində fokuslamış oldular. Heydər Əliyevin nisbətən yaşlı olduğunu əsas gətirərək, bütün siyasi fəaliyyətlərini onun fiziki yoxluğuna hesablayırdılar. Hətta bununla bağlı "X günü" adlı xüsusi bir termin də icad etmişdilər. Məhz həmin radikal dairələr apardıqları çirkin siyasətlə bağlı nəsə əldə edə bilmədilər. Həmin tarixi dərsdən ibrət çıxarmaq əvəzinə, yanlışlarını davam etdirirlər. Ən maraqlısı budur ki, belə dairələrin yalanları açıq formada ifşa olanda belə çıxıb hər hansı formada üzrxahlıq etmirlər.

Azərbaycan Prezidenti sentyabrın 3-də efirdə göründü və çox gümrah təsir bağışladı. O, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edirdi. Bu mənzərdən sonra gərək son bir həftə ərzində xalqa min yalan danışan, ən başlıcası isə siyasətlərini ölkə başçısının səhhəti üzərindən qeyri-etik oyunlar üzərində fokuslayanlar bir daha danışmasınlar. Amma onlarda utanan üzün olmadığını bildiyimiz üçün, mövzu ilə bağlı ekspert rəyi almaq qərarına gəldik.

*"Bütün bunlar müxalifətin səhv strategiya və taktika üzərində hərəkət etdiyini göstərir"*

Millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sivil siyasi mübarizə aparmaq üçün resurslara mailk olmalısan: "Çox təəssüflə qeyd edə bilərik ki, bugünkü radikal müxalifətin əlində belə imkanları yoxdur. Onların, həmçinin, cəmiyyəti arxalarınca apara biləcək ideyaları da mövcud deyil. Azərbaycanın inkişafı ilə bağlı hər hansı bir alternativ konsepsiyaya da malik deyillər. Bu səbəbdən də qəbul edilməyən siyasi mübarizə metodlarından yararlanmağa çalışırlar. Məcbur qalırlar ki, ortaya cılız, uydurulmuş və heç bir əhəmiyyət daşımayan mövzuları atsınalr. Hətta bu taktikaları belə onlarda çox uğursuz alınır. Son zamanlar görürük ki, ard-arda uydurduqları mövzularla özlərini gülməli vəziyyətə salmış olurlar. İfrat yalan danışdıqları üçün, bu, qısa bir zamnda puç olur. Bütün bunlar müxalifətin səhv strategiya və taktika üzərində hərəkət etdiyini göstərir. Ölkə başçısı ilə bağlı yaydıqları qeyri-etik xəbərlərini də bu qəbildən saya bilərik. Bir daha qeyd etmək istəyirəm ki, belə metodlarla siyasi mübarizə heç bir cəmiyyətdə təqdir olunmur. Yaxşı olardı ki, radikallar bu uğursuzluqlarından bir dərs alsınlar".

***Məhəmmədəli QƏRİBLİ***

**Lider olmaq üçün insan ilk öncə özünü yetişdirməlidir. Liderdə gözəl natiqlik qabiliyyəti, insanları motivasiya etmək bacarığı, onlara stimul vermək istedadı olmalıdır. Bu cür qabiliyyəti olanlar nümunəvi davranarsa və ətrafındakıların güvəninə, etibarına nail olarsa, yanındakı kütlə, istər-istəməz, düzgün istiqaməti alacaq və onu təqib edəcək.**

# Əli Kərimli əsl siyasi liderlərə xas keyfiyyətlərin hansı hissəsini yerinə yetirə bilir...

## *Ramil Hüseynov: "Bu xüsusiyyətlər onda olsaydı, o zaman Əli Kərimlinin siyasi arenada hansısa uğuru olardı"*



Əsl siyasi liderliyin əsasında başqalarına təsir etmək bacarığı dayanır. İnsanlara təsir etmək üçün bir şəxsin dərin zəkası, dünyagörüşü, iti təfəkkürü, analiz, sintez bacarığı olmalıdır. Bu mütləqdir. Çünki liderlik bilik və təcrübə tələb edir. Liderin iki əsas vəzifəsi var: problemi həll etmək və kömək etmək. Bir lider yol göstərməli, ilham verməli, əməkdaşlıq üçün zəmin yaratmalıdır. Ən başlıcası isə örnək olmalıdır. Lider olan şəxs komandasının bütün üzvlərinə bərabər yanaşmalı, qarşılıq gözləmədən, mənfəət istəmədən rəğbətləndirməyi bacarmalıdır. Təkcə bununla iş bitmir. Əsl lider bu bacarıqları səriştəyə çevirməyi bacarmalı, onlardan yerində və zamanında düzgün istifadə etməlidir.

O da məlumdur ki, liderlik iddiası ilə alışıb-yanan siyasilərdən biri də Əli Kərimli olub. Mərhum eksprezident Əbülfəz Elçibəy AXCP-yə rəhbərlik etdiyi dönəmlərdə partiya sədrinin birinci müavini olan Kərimli hər vasitə ilə liderliyə can atırdı. Hətta sədrin xəbəri olmadan gizli işlərlə məşğul olurdu. Partiya daxilində təfriqəçilik salır, yalnız özünə yaxın şəxsləri partiyanın ali strukturlarında yerləşdirməyə çalışırdı. Təsadüfi deyil ki, Əli Kərimli hələ o vaxt partiya daxilində "Yurd" adlı qruplaşma yaratmışdı. Bu qruplaşma sonrakı dövrdə partiyanın dağılmasında mühüm rol oynadı.

2000-ci ilin avqustunda Əbülfəz Elçibəy vəfat edəndən sonra Əli Kərimli partiya sədrliyinə iddiasını ortaya qoydu. Ancaq onun bütün səylərinə rəğmən liderliyi qəbul edilmədi. Partiyanın hələ qurultayı olmamış AXCP parçalandı. Köhnə hərəkatçılardan, AXC idarə heyətinin əvvəlki üzvlərindən heç biri Əli Kərimlinin yanında qalmadı. Ona görə ki, Kərimlinin ambisiyaları, mənəm-mənəmlik prinsipindən çıxış etməsi hamının ondan uzaqlaşmasına gətirib çıxardı. Nəticədə bir zamanlar AXCP-nin siyasi arenada olan varlığından əsərəlamət belə qalmadı. Təbii ki, Əli Kərimlidə əsl siyasi liderə xas olan keyfiyyətlər, xüsusiyyətlər olsaydı, bəlkə də bunlar baş verməzdi. Ancaq, göründüyü kimi, bunların olmaması belə biabırçı mənzərənin yaranmasına səbəb oldu.

*"O, siyasi meydanda özünü təsdiq edə bilmədi"*

Bütün bunlarla yanaşı, əsl siyasi liderə xas olan keyfiyyətlərin neçə faizi Əli Kərimlidə var?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, siyasətdə əsasən nəticəyə qiymət verilir: "Bir siyasətçi uzun müddət fəaliyyət göstərdiyi vaxt bir nəticə əldə etməyibsə, onu uğurlu siyasətçi saymaq olmaz. Hesab etmək olmaz ki, belə bir şəxs siyasətçiyə xas olan vacib xüsusiyyətləri özündə ehtiva edir. Bu xüsusiyyətlər onda olsaydı, o zaman Əli Kərimlinin siyasi arenada hansısa uğuru olardı. Bu gün isə onun heç bir uğurundan söhbət gedə bilməz. Çünki bunlar 26 ildir siyasi səhnədədir, amma heç bir uğur əldə etməyiblər. Çox qəribədir ki, öz uğursuzluqlarının səbəbini hakimiyyətdə görürlər. Ona görə də sözügedən şəxsdə siyasətçiyə xas olan xüsusiyyətlər çox azdır. Bununla belə, bəzi müxalifət liderləri də bu xüsusiyyətlərdən məhrumdurlar. Belələri çox cılız hisslərlə yaşayan siyasətçilərdir. Bu səbəbdən ardarda uğursuzluqlarla üzləşirlər. Siyasət meydanında gərək özünü təsdiq edə biləsən. Əli Kərimli isə siyasi meydanda özünü təsdiq edə bilmədi. Təsdiq edə bilsəydi, o zaman ətrafında olanlar rəhbərlik etdiyi partiyadan uzaqlaşmazdı. Uzaqlaşandan sonra da barəsində mənfi ifadələr işlədiblər. Faktiki olaraq, həmin insanların əksəriyyəti Əli Kərimli barədə mənfi rəylər səsləndirir. AXCP-dən gedənlər Əli Kərimlini diktator adlandırırlar. Siyasi liderə xas olan keyfiyyətlərə malik olsaydı, ona belə yanaşmazdılar".

***Vidadi ORDAHALLI***

# "Ünvanlar şəxsiyyəti - Hidayət" - 75...

**1994-cu ildə Heydər Əliyevin yanında fraqment olaraq mənim barəmdə söhbət gedərkən onun hansı mövqeni tutduğunu çox-çox sonralar eşidəndə hələ şəxsən tanımadığım bu insan haqqında ağlımdan keçən ilk fikir belə oldu: "KİŞİ ADAM"! Sonra Heydər Əliyevin də həmin məsələ barədə pozitiv fikirdə olması məni başqa bir qənaətə də gətirdi: "Bu insanın həqiqətən KİŞİ ADAM olduğunu Heydər Əliyev daha öncə görmüşdü..."**

İllər, dövrlər, ədəbi mühitlər, siyasi, iqtisadi vəziyyətlər bir-birini əvəz etdikcə onun barəsində məlumat və təsəvvürlərim bir qədər də zənginləşdi. Jurnalist, şair-dramaturq, romançı, dönməz vətənpərvər, maraqlı insan, həqiqi ziyalı, dövlətinə bağlı diplomat və bütün bunların timsalında çoxlarının qibtə etdiyi "KİŞİ ADAM" imicinə mübahisəsiz yeni elementlər gətirmiş insanı - ədəbi-publisist sima olan Hidayəti, ictimai və dövlət xadimi kimi Hidayət Orucovu beləcə yaxşı tanıdım...

Şəxsiyyət olmaq üçün "ünvan" kateqoriyasının vacibliyini söyləmək mənim ixtiram deyil. Ancaq şəxsiyyətin ünvanlarının sayca çoxluğunu daha üstün göstərici saymaq kiçik bir ixtira kimi qəbul edilə bilər. Həm də burada söhbət hər bir insanın səhər-axşam çıxıb-qayıtdığı coğrafi məkan mənasında yaşayış ünvanından yox, yaşanmış ömrün mərhələ və keçidlərini, məntiqini və dolu məzmununu, təkrarsızlığını, nümunəviliyini, cəsurluğunu və prinsipiallığını əks etdirən fəlsəfi-praktik mənada "yaradıcı fəaliyyət ünvanı"ndan gedir. Ünvanların çoxluğunun şəxsiyyətin çəkisinə, sanbalına, dünyagörüşünün polifonikliyinə, biliklərinin qloballığına, ictimai-məhsuldar yükünün ağırlığına birbaşa dəxli var. Yalnız özü və ailəsini, bəzən heç onu da düşünməyən kəslər üçün çox gurultulu və cazibədar "ünvanı vətəndir" epitetini necə işlətmək olar?! Ünvanı vətən, yükü ictimai, təfəkkürü dövlətçi olmaq məhz böyük şəxsiyyətlərə xasdır - Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov kimi...

Hidayət həyatı, yaradıcılığı və karyerasında çox "ünvanlar" yarada bilmiş şəxsiyyətlərdəndir. Soyuna sədaqət, milli düşüncəyə bağlılıq, vətənpərvərlik və Vətən üçün çiyninə yük almaq Hidayət müəllimin saysız ünvanlarının yalnız bir qismidi. Poeziyada, nəsrdə, romançılıqda, ümumən yaradıcılıqda, dövlət işində, diplomatiyada və sair sferalardakı "ünvanlarını" da əlavə etsək, Hidayəti "ünvanlar şəxsiyyəti" də adlandırmaq olar.

### Ermənilər bilsəydi ki, sonradan bir qəzet müxbirini...

75 yaşlı "ünvanlar şəxsiyyəti"nin hələ 24 yaşında olarkən milli mentalımıza nəinki yad, hətta qanlı düşmən olan əks-milli mühitdəki fəaliyyəti, hər cür basqılar və düşmən niyyətli planların içində işləməsi, yıxılmaması, ayaqda qala bilməsi, üstəlik öz milli-mənəvi simasını qoruyub saxlaya bilməsi, hətta nailiyyətlər qazanması, razılaşaq ki, hər şəxsiyyətə qismət olan tale yolu deyil. Ermənilər bilsəydi ki, 1960-cı illərdə sıradan bir qəzet müxbiri olan jurnalisti "ölüm yatağında çarpışan" bir teatra göndərməklə hansı karyeranın başlanğıcını qoyurlar, yəqin ki, Hidayət müəllimi nə "Sovet Ermənistanı" qəzetində müxbirlikdən İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor göndərərdilər, nə də onu ləkələmədən sağ-salamat buraxardılar. Gənc, təcrübəsiz, lakin istedadlı bir publisisti əslində tanış olmayan sahəyə göndərməyin arxasında, təbii ki, çirkin, murdar, düşmən niyyətlər dayanırdı. Ancaq Hidayət müəllimlə bağlı planlar cızan ermənilərin görə bilmədikləri başqa güclü faktorlar da var idi - gənc olsa da, Hidayət müəllimin çevik və fitri idarəçilik qabiliyyətləri, yaradıcılıq gücü, özünə inamı, prinsipiallığı, milli köklərə söykənməsi... Bir şeirində "Bilirsiniz mən kiməm" deyə sual edən şairin cavabı onun dərin poetik-fəlsəfi düşüncə potensialını tam açmaqla yanaşı, kökə bağlılığının milli qürur mənbəyinə çevrildiyini də parlaq şəkildə nümayiş etdirir:

*"Bilirsiniz mən kiməm?*
*Babamın atamdan sonrakı yaşı,*
*Çiçəkli, müşəli, qayalı Zəngəzur torpağı,*
*Bir aran çüşməsinin su daşı.*
*...Qədimdən qədiməm,*
*Uludan uluyam,*
*Bir ovuc,*
*Bir içim xan Araz suyuyam!"*

Məhz bunlar idi Hidayət müəllimi ermənilərin "gedib məhv olacaq", bir türk ziyalısını da "şiv ikən beləcə məhv edəcəyik" kimi proqnozla qəzet müxbirliyindən teatra atdıqları halda, onu uğurdan-uğura, şöhrətdən-şöhrətə aparan böyük yolun əsas təkanverici qüvvəsi...

İrəvan Teatrını ağır bir miras kimi qəbul edən Hidayət müəllimin qısa müddətdə teatrı çox populyar səviyyəyə çatdırmasına, hətta sovet Azərbaycanının yaradıcılıq və ədəbi mühiti, teatr ictimaiyyəti ilə güclü əlaqələr yaratmasına imkan verən motiv də bu idi. Nə qədər ağır və yad milli basqılar altında işləməsinə baxmayaraq, Hidayət Orucovun o illərdə Ermənistandakı Azərbaycan ədəbi proseslərinə də yol açması, ədəbi mühitin sağlamlığını və milliliyini müdafiə edə bilməsi onun həqiqətən istedadların tükənməzliyindən xəbər verməklə yanaşı, həm də təsdiqləyirdi ki, Hidayətin milli köklərə bağlılığı dərin və qırılmazdır. Düşmən mühitdə İrəvan Dövlət Azərbaycan Dram Teatrını dirçəltmək və görünməmiş inkişaf zirvəsinə yetişdirmək Hidayət Orucovun böyük "əsərlərindən", əslində onun adına əbədiyyət gətirən "ünvanlardan" biridir.



### Özü üçün yox, milyonlar üçün yazdığını...

Hidayətin publisistikasını, tərcüməçiliyini, poeziya və romançılığını, dramaturgiyasını bu gün təhlil və ədəbi tənqid süzgəcindən keçirmək fikrim yoxdur. Hətta bu yöndə də ciddi və yeni nəsnələr demək imkanına malik olsam da, Hidayətin ədəbi portretini yaratmağı peşəkarların öhdəsinə buraxmaq daha məsləhətlidir. Mən isə bu kontekstdə onu deməklə kifayətlənirəm ki, Hidayət müəllimin dövlət məmuru, diplomat - harda olmasından asılı olmayaraq, həmişə köksündə səmimi, nüfuzedici bir "şair ürəyi" daşıdığını hiss etmişəm. Onun poeziyası dramaturgiyası qədər, dramaturgiyası publisistikası qədər, publisistliyi tərcüməçiliyi qədər maraqlı, məzmunlu və nəticəlidir. Özü üçün yox, milyonlar üçün yazdığını heç vaxt unutmadığını hər şeirində görmək mümkündür. "Şeirin hər yükünü daşıyıram" ifadəsi kifayət edir ki, Hidayətin hər şeir misrası, hər qafiyə, hər şeir süjeti üzərində hansı m ə m n u n i y y ə t l ə düşündüyünə əmin olasan. Ailəsi, övladları qədər milyonlar qarşısında hər bir yazı-pozu üçün cavabdehlik hissini bir an belə unutmamaq ona həqiqətən yaraşır. Sadəlik, həddsiz təvazökar davranış, məntiqlilik, etdiklərini öyünmək üçün yox, təlim-tərbiyə nümunəsi kimi yenidən yaratmaq qiymətli xüsusiyyətlərindən, onu tanıdan, qibtə doğuran "ünvanlarından" biridir. Düşdüyü şəraitdən, qarşısındakının hansı səviyyənin adamı olmasından, söylədiklərinin insanlarda hansı emosiyaları doğurmasından asılı olmayaraq səsinin tonunu bir qaydada olaraq dəyişməz, sakit, aramlı və amiranə danışıq tərzi onu "Hidayət" edən çoxlu "ünvanlardan" biri sayıla bilər.

Şəxsiyyəti fərdlərdən ayıran keyfiyyətlər sırasında "ünvanlarla" yanaşı cəsarət, müdriklik, uzaqgörənlik jestlərini mütləq qeyd etmək lazımdır. Məhz "ünvanların" və jestlərin çoxluğu və vəhdəti şəxsiyyətlərin arasından azaz hallarda "əfsanəvi şəxsiyyətlər" təbəqəsini ayırmağa imkan verir. Hələ ötən əsrin 70-80-ci illərinin əvvəllərində Ermənistan Yazıçılar Birliyinin nəzdində Azərbaycan Ədəbiyyat Şurasına rəhbərlik etmək o dövr üçün axına qarşı getmək, kütləyə əks mövqe tutmaq kimi cəsarət nümayişləri idi. Həm də bu nümayişlər milli ədəbi koloritlərdən uzaq düşməmək, onu zənginləşdirmək kimi uğur göstəriciləri ilə məharətlə uzlaşdırılırdı.

### "Его молчание тоже опасно..."

Hidayət Orucovun milli-ədəbi yaradıcılıq və siyasi hərəkat müstəvisində cəsarət nümayişləri Ermənistandan Bakıya köçdüyü 1984-cü ildən sonra da davam etdirildi. Həm də Azərbaycanın o zamankı ictimai-siyasi mühiti belə jest nümayişləri üçün heç də Ermənistandakından az cəsarət tələb etmirdi. Əbdürrəhman Vəzirovun əslində "dövlət xaosu" kimi xarakterizə olunan idarəçiliyində Moskvadab və İrəvandan uzanan gizli erməni əllərinin fəal iştirakı real fakt idi. Məhz belə bir şəraitdə Respublikanın siyasi hakimiyyəti ilə açıq əks mövqelərdə olmaq, onu tənqid etmək, hətta tənqidləri Vəzirovun şəxsən üzünə demək hər kişinin və hər ziyalının göstərə biləcəyi jestlər deyildi. Ermənistandan qovulan qaçqınlarımızın ilk dalğasının məhz Dağlıq Qarabağda yerləşdirilməsinin qarşısını düşməncəsinə almaqla vəziyyətimizi daha da ağırlaşdıran Vəzirov hakimiyyət(sizliy)inə qarşı onun cəsarətli mövqe nümayişləri heç vaxt unudulmaz. Yazıları və çıxışları Vəzirov klanını o qədər qorxutmuşdu ki, Vəzirov "eqo molçanie toje opasno" kimi etirafda bulunmağa məcbur olmuşdu.

Hidayət müəllimin adı müstəqil Azərbaycanın dövlət strukturları sisteminin quruculuq tarixində həm də heç bir ənənəsi, xələfi olmayan yeni təşkilatı "sıfırdan" başlayaraq qura bilən istedadlı "idarəçi məmur" kimi qalacaq. O da ola, Dini İşlər üzrə Dövlət Komitəsi kimi spesifik, ən müxtəlif etiqad və etnik şüur elementlərinin təsirli rol oynadığı mürəkkəb sferanı əhatə edən qurum... Dini İşlər üzrə Dövlət Komitəsinin ilk qurucusu olmaq da Hidayət müəllimin şəriksiz "ünvan"larından biridir. Məlumdur ki, buna qədər belə Komitə yox idi. Ancaq hər kəs razılaşar ki, Hidayət müəllim dövlətçilik prinsiplərinin üstünlüyü şəraitində dini sferanın kamil idarəçilik mexanizminin əsaslarını peşəkar səviyyədə yarada bildi.

### Öz tarixini ümumi siyasi tarixin içində yaza bilən adam...

Hidayət müəllimi ucaldan, böyüdən daha bir məqam var. O, içində yaşadığı ümumi siyasi tarixin axarına düşüb kor-koranə getməyən, lazım gələndə onun gedişatına imkanı daxilində təsir göstərən, bu tarixin içində həm də öz tarixini yaradan şəxsiyyətlərdəndir. Ermənistan mühiti, sonra Azərbaycan həyatı, Qarabağ və müstəqillik uğrunda xalq hərəkatı, müstəqil Azərbaycanın idarəçiliyində ilk iştirakçılıq, mürəkkəb proseslər şəraitində müstəqil dövlətçilik üçün ən rasional siyasi kursu tutaraq Heydər Əliyevin təcrübəli silahdaşlarından birinə çevrilmək - bunlar ötən əsrin 60-cı illərindən başlayaraq indiyə qədər davam edən siyasi tarix prosesinin sadə çərçivəsidir. Hidayət Orucov zaman və məzmunca kiçik olmayan bu intervalda özünü itirmədi, istedadlı publisist, şair, dramaturq, siyasiləşmiş fəal vətəndaş kimi məhsuldar və səmərəli fəaliyyətlərini davam etdirdi, ümumi siyasi tarixin içində o tarixi əslində tamamlayan özünün yaradıcılıq tarixini, dövlət quruculuğunda iştirakçılıq və siyasi idarəçilik tarixini, beynəlxalq münasibətlər sistemində dövlətin təmsilçilik tarixini də yazdı. Tək bunlar kifayət edəcək ki, Hidayət müəllim bəlli siyasi tarix prosesləri çərçivəsində heç vaxt unudulmasın və adı əbədi yaşasın.

Hidayət Orucov yaradıcı şəxsdən dövlət məmurluğuna və dövlətin təmsilçiliyinə qədər maraqlı həyat yolu keçməkdədir. Bu yolda onu dəyişmədən müşayiət edənlər isə davamlı yaradıcılığıdır, ailəsidir, pərəstişkarları və dostlarıdır...

"Dövrü seçmirlər, orada yaşayıb yaradırlar" kimi müdrik kəlamın sübutu olan 75-in mübarək, əziz dostum!"

*Aydın QULİYEV*

# Radikalların 93-də işğal olunmuş torpaqların məsuliyyətini Heydər Əliyevin üzərinə atmaq cəhdi...

**Fəzail Ağamalı:** *”Həmin tarixlərdə Heydər Əliyev prezident səlahiyyətlərini icra etmirdi”*




*”Torpaqların itirilməsinə belə intriqalar səbəb olub”*

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində yeni məqalə ilə çıxış edib. Əli Həsənovun yazısında qeyd edilir ki, Əli Kərimli son vaxtlar yenidən yaxın tariximizi təhrif edərək ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın 7 rayonunun işğal olunduğunu iddia etməyə başlayıb:**

"Hələ o illərin canlı şahidləri Azərbaycan əhalisinin demoqrafik balansında xüsusi çəkiyə malikdir və yaxşı xatırlayırlar ki, Dağlıq Qarabağ və ətraf yeddi rayon Heydər Əliyev Azərbaycanın rəsmən prezidenti seçilməmişdən əvvəl işğal edilib. Azərbaycanın işğal edilmiş sonuncu rayonu Zəngilan Ermənistan hərbi birləşmələri tərəfindən 1993-cü ilin oktyabrında zəbt olunmuşdu. Həmin vaxta qədər Azərbaycanın legitim prezidenti Əbülfəz Elçibəy idi. Heydər Əliyev 1993-cü ilin 15 iyununda xalqın dəvətilə Azərbaycanı düşdüyü çıxılmaz vəziyyətdən xilas etmək üçün Bakıya gəlmiş və Ali Sovetin sədri seçilmişdi. Lakin ölkədə bütün güc strukturları parlamentin sədrinə yox, formal olaraq, legitim prezidentə, faktiki olaraq, baş nazirə tabe idi. Parlamentin sədri kimi Heydər Əliyevə tabe olan nə ordu, nə də heç bir güc strukturu yox idi. Paytaxtı tərk etmiş legitim prezidentin tərəfdarı olan deputatlar və ona sadiq məmur korpusu tərəfindən Heydər Əliyevin hətta parlamentin sədri kimi səlahiyyətlərinin icrasına da hüquqi və qeyri-hüquqi maneələr yaradırdılar".

Əli Həsənov məqaləsinin sonunu Əli Kərimliyə ünvanladığı sualla bitirir: "Mən sizə sual verirəm: belə çətin, parampərça vəziyyətdə məsuliyyətinizi, dövlət tərbiyəsini dərk etmədən atıb qaçdığınız Azərbaycanın siyasi, sizinsə fiziki varlığınızı xilas etdiyi üçünmü Heydər Əliyevin ünvanına ittihamlar səsləndirirsiniz?

Daxili işlər naziri dünyanı nüvə müharibəsi ilə təhdid edən, müdafiə naziri Prezident və spikerə meydan oxuyan, hər səhra komandiri paytaxta qoşun çəkib vəzifə davasına çıxanlarmı torpağın itkisində günahkardır, yoxsa Azərbaycanı bu rəzalətdən, anormal vəziyyətdən, siyasi və fiziki məhvdən xilas edən Heydər Əliyevmi?

Əli Kərimli, tarix məhz onu saxtalaşdırmaq istədiyiniz üçün sizlərə əsl yerinizi göstərdi. Siyasi bioqrafiyanız çoxdan bitib, siz indi adi bloger kimi maraq doğurursunuz...".

Prezidentin köməkçisi tərəfindən radikal müxalifətin təmsilçisi olan Əli Kərimliyə verilən tarixi xatırlamanı necə dəyərləndirmək olar?

Tarixçi-alim, millət vəkili Fəzail Ağamalı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Əli Kərimli bütün siyasi fəaliyyətini yalan və saxta fikirlər üzərində qurub: "Onun çıxışlarında heç bir arqument yoxdur, hamısı şər və böhtandır. Bu cür insanlar Azərbaycan cəmiyyətində heç vaxt uğur qazanmayıb və heç vaxt da qazanmayacaq. Bəllidir ki, Əli Kərimli anti-Azərbaycan qüvvələri tərəfindən himayə edilir. Son vaxtlar bir qədər arxayın görünür. Yəqin ki, xaricdəki ağaları ona hansısa təminatı veriblər ki, son dərəcə saxta ittihamları çəkinmədən səsləndirir. Öz çiyinlərində xarici ağaların əlini hiss etdiyi üçün ağlına nə gəlirsə onu da danışır, məqsədi Azərbaycanı qarışdırmaqdan başqa nəsə deyil. Ancaq o, bir həqiqəti dərk etmək istəmir ki, Azərbaycan xalqı heç vaxt saxtakarlığı və xəyantə bağışlamır. Əli Kərimlinin siyasi aləmdə parlamasına səbəb olan Elçibəyə necə xəyanət etdiyini Azərbaycan xalqı gözəl bilir. Bu yaxınlarda bu barədə internet televiziyalarından birində faktlara əsaslanan geniş material da efirə getdi. Həmin materialda Elçibəyin öz dilindən Əli Kərimliyə xəyanətlə bağlı müəyyən sözlər deyilir".

Millət vəkilinin sözlərinə görə, 1993-cü ildə Elçibəy hakimiyyətindən hamı dağılışıb getsə də, Prezident Administrasiyasını son tərk edən Əli Kərimli oldu: "Min bir oyundan çıxmağa çalışırdı ki, Heydər Əliyevin xoşuna gəlsin. Özünün siyasi gələcəyini Heydər Əliyevin himayəsində görən bir insan dahi liderin ona əhəmiyyət vermədiyini gördükdən sonra tam dəyişdi. Elə həmin vaxtdan da Əli Kərimli Heydər Əliyev iqtidarına qarşı çıxanların önündə durmağa başladı. İndi utanmadan iddia edir ki, rayonlar Heydər Əliyevin dönəmində işğal edilib. Halbuki, həmin tarixlərdə Heydər Əliyev prezident səlahiyyətlərini icra etmirdi. O, Ali Sovetin sədri olanda Azərbaycanda hakimiyyətsizlik hökm sürürdü. Siyasi, iqtisadi, hərbi böhran özünün pik nöqtəsinə çatmışdı. Belə vəziyyətin yaramasının ən böyük səbəbkarlarından biri də məhz Əli Kərimli idi. Çünki həmin vaxt o, Prezident Aparatında yüksək post tuturdu. Şəxsən onun göstərişi ilə AXCP-yə aid olan batalyonların şoxu döyüş bölgəsindən geri çəkildi. Əli Kərimlini o vaxt torpaqların qorunması maraqlandırmırdı. O, "Yurd"un kadrlarını vəzifələrə yerləşdirməklə məşğul idi ki, tez bir zamanda hakimiyyəti ələ keçirə bilsin. Torpaqların itirilməsinə belə intriqalar səbəb olub. Ermənilərə qarşı vuruşmaq onların yadından tam çıxmışdı. Onun vəzifəyə təyin etdiyi insanların əksəriyyəti səriştəsiz insanlar idi. Ölkənin ağır vəziyyətə düşməsində bu amillərin böyük rolu olub. Surət Hüseynovun qiyamının qarşısından qorxaraq qaçanlardan biri də Əli Kərimli idi".

Fəzail Ağamalının sözlərinə görə, Ermənistanın Azərbaycana qarşı işğalının genişlənməsi və o torpaqların alınmasında böyük məsuliyyətinin olduğunu bildiyi üçün Əli Kərimli bunu başqalarının üzərinə qoymaq istəyir: "Bütün bunları biz unutmamışıq, hamısı gözümüzün önündə olub. Onların fəaliyyətinə baxın. Heydər Əliyevə, dövlətçiliyə qarşı etimadsızlıq toxumu səpməyə çalışırlar. Son günlər ərzində isə cənab Prezidentlə bağlı ləyaqətsiz bir informasiya siyasəti yürüdürlər. İlham Əliyev Prezidentdir, onun bəlli iş qrafiki var. Bəzən elə olur ki, aktiv görüşlər keçirir. Elə olur ki, bir neçə gün digər işlərlə məşğul olur. Sənədlərlə tanış olur, sərəncamlar imzalayır, aktiv görüşlər keçirmir. Prezidentin işi birşaxəli deyil ki. Bunu əsas götürən Əli Kərimli və tərəfdarları ölkə başçısının səhhəti ilə bağlı yalanlar dövriyyəyə buraxdılar. İnsan nə qədər ləyaqət hissini itirməlidir ki, siyasətini belə yalanlar üzərində qurmuş olsun. Sentyabrın 3-də İlham Əliyev efirdə göründü. Rusiya nümayəndə heyətini qəbul edirdi. Əli Kərimlinin nəzarətində olan bir kanal canlı yayım edirdi. Məhz həmin mövzu ilə bağlı. Həmin dəqiqə yayımı dayandırıb, texniki nasazlığa görə üzr istədilər. Yalanları, riyakarlıqları baş tutmayanda da belə addımlar atırlar. Buna siyasət demək olmaz".

*Məhəmmədəli* ***QƏRİBLİ***

# Əli Həsənov Əli Kərimlinin dəstəsinin 93-cü ildəki hadisələrin məsuliyyətindən qaçmaq cəhdlərinə daha bir ifşaedici şərh verdi...

**Azərbaycan rezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov özünün "Facebook" səhifəsində "Yarıtmaz fəaliyyətin acı nəticələrini özgələrə yükləmək cəhdi..." başlıqlı yazısı ilə oxuculara müraciət edib.**



"Trend"-in məlumatına görə, müraciətdə deyilir:

"Hörmətli oxucular!

Dünən FB səhifəmdə paylaşdığım bir məqalədə 1993-cü ilin yay-payız aylarında Azərbaycanda yaşanmış faktiki hakimiyyətsizliyin doğurduğu acı fəsadlara toxunmuş və bu fəsadları aradan qaldırmaq üçün ümummilli lider Heydər Əliyevin həmin vaxt hansı ciddi maneələri dəf etməsindən bəhs etmişdim. Qeyd etmişdim ki, hakimiyyəti və ölkəni məsuliyyətsizcəsinə taleyin hökmünə buraxaraq sabotaj yolunu tutmuş ozamankı AXC-Müsavat hökumətinin bəzi rəhbər şəxsləri öz fəaliyyətsizliklərinin acı nəticələrini illər sonra onların özünü belə fiziki məhvolmadan xilas etmiş şəxsə və komandaya yükləməklə davam etməyə çalışırlar.

Belə şəxslərin əsassız ittihamlarına cavab olaraq yazdığım həmin məqaləni təhlil edən bəzi müxalif bloqçular nədənsə yazıda sadalanmış ciddi faktları və arqumentləri arxa plana ataraq, oxucuların diqqətini 1993-cü ilin avqust ayında keçirilmiş referendum aktı üzərində fokuslamağa, sanki bununla ozamankı məsuliyyətsizliklərinə haqq qazandırmağa çalışırlar.

Bəli, avqustun 29-da referendum aktı olmuşdu və mən o zaman Heydər Əliyevin rəhbəri olduğu YAP-ın fəal üzvlərindən biri olaraq və aktiv vətəndaş mövqeli şəxs kimi, əlbəttə ki, bu proseslərdən xəbərdar idim. Həm də sadəcə xəbərdar deyildim, yaxından müşahidə etmək imkanına malik idim. Referendum aktını zəruri edən səbəblər o zaman kifayət qədər idi. İlk növbədə, Azərbaycanın xariclə əlaqələrini tənzimləmək üçün hüquqi əsas lazım idi. Ozamankı xarici diplomatların ölkədəki faktiki siyasi durumu legitimləşdirmək üçün etdiyi çağırışlar da unudulmayıb. Lakin təəssüflə təkrar xatırlatmağa məcburam ki, Azərbaycanın daha çox xarici diplomatik əlaqələrini tənzimləmək, xarici tərəfdaşlarla danışıqlarda "legitim və faktiki hakimiyyəti olmayan dövlət" imicindən qurtulmaq üçün məcburən gedilmiş referendum ölkə daxilində vəziyyəti tam nəzarətə götürmək üçün yetərli olmamışdı. Çünki, bir tərəfdən Əbülfəz Elçibəy təkidlə özünü yeganə seçilmiş prezident elan edir, Ali Sovetin müvafiq qərarını, eləcə də sonradan keçirilmiş referendumun nəticələrini qəbul etmir, digər tərəfdən ona sadiq parlament üzvləri və məmur korpusu Heydər Əliyevə öz parlament sədri səlahiyyətlərini icra etməyə bu və ya digər maneələr yaradır, vəzifələrini dondurur, dövlət idarələrinin işini sabotaj edirdilər. Digər tərəfdən ilin sonuna qədər ölkənin sərhəd bölgələrində separatizm təhlükəsi davam edirdi. Yaranmış hüquqi anlaşılmazlıqları, məmur korpusunun sabotaj cəhdlərini, silahlı qüvvələrin başıpozuqluğunu aradan qaldırmaq üçün tanınmış ziyalıların Kələkiyə etdikləri səfərlər də nəticəsiz başa çatmışdı.

Parlamentdə aparılmış müzakirələrdə silahlı qüvvələrin Heydər Əliyevə deyil, baş nazirə tabe edilməsi haqda anlaşma əldə edilmişdi. Lakin silahlı qüvvələr üzərində nəzarət yalnız baş nazirdə də deyildi, Ələkrəm Hümbətova, Rövşən Cavadova, ayrı-ayrı səhra komandirlərinə tabe olan silahlı birliklər də mövcud idi. Anlaşma da heç bir vahid hüquqi fəaliyyət ehtiva etmirdi, çünki Azərbaycanın o zaman düşdüyü vəziyyətdə hüquqi addımlar atmaq mümkünsüzləşmişdi, bəzən ümumi qənaətlər, parlament tribunasında edilən şifahi çıxışlar hüquqi aktları əvəz edirdi. "Bütün ölkənin reqlamenti pozulub, qanunlar pozulub, bunu siz etmisiz, amma indi siz parlamentdə reqlamentinin pozulmasına irad tutursunuz"- "Demblok" deputatlarından birinin dediklərinə verilmiş məlum cavab ozamankı hüquqi anarxiyanın ən gözəl izahı idi.

Məqalədə mən həm də ordu olmadan atılması mümkün olan, bəlkə də bir çox hallarda qeyri-mümkün görünən addımlar- hüquqi anarxiya və özbaşınalığın, separatizmin, ölkənin siyasi xəritədən silinmə təhlükəsinin, vətəndaşların fiziki təhlükəsizliyinə olan təhdidlərin, beynəlxalq blokadanın və s. aradan qaldırılmasını sadalamışam.

Lakin hamıya məlumdur ki, əraziləri hakimiyyət uğrunda siyasi mübarizəyə cəlb edilmiş başıpozuq hərbi dəstələrlə, vahid nizami ordu olmadan qorumaq mümkün deyildi. Yalnız Heydər Əliyev oktyabrda prezident seçildikdən, hüquqi anlaşılmazlıqlar və silahlı qarşıdurmalar nisbətən ardan qalxdıqdan sonra ölkədə ciddi ordu quruculuğuna başlanması mümkün oldu ki, bu haqda da məqalədə qeyd edilib. Həmin mərhələnin başlanğıcı dövlət başçısı Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciəti ilə qoyuldu. 2 noyabr 1993-cü il tarixli müraciət təkcə hərb quruculuğu deyil, həm də Azərbaycanın dövlət quruculuğu sahəsində tarixi əhəmiyyət daşıyan proqram səciyyəli çıxış idi.

**Mən dünənki məqalədə məhz bu reallığı anlatmağa cəhd etmişəm…".**

# Putinin təbriki İrəvanda Köçəryan tərəfdarlarını fəal siyasətə toparladı

**Rusiya Prezidenti Vladimir Putinin Ermənistanın keçmiş prezidenti Robert Köçəryanı yubileyi münasibətilə təbrik etməsindən sonra Qarabağ klanının tərəfdarları küçələrə çıxıb. Belə ki, sentyabrın 3-də Köçəryana qarşı irəli sürülən ittihamların konstitusiyaya uyğunluğu barədə müraciəti ilə bağlı İrəvanda iclas keçirən Konstitusiya Məhkəməsinin binası qarşısında mitinq başlayıb.**



## *Nəzakət Məmmədova: "Bütün bu proseslər Ermənistanı böyük xaosa doğru sürükləyir"*

R.Köçəryanın 100-dək tərəfdarı onu dərhal azadlığa buraxmağı tələb edib. Xatırladaq ki, iyunun 25-də Apelyasiya Məhkəməsinin qərarı ilə həbs edilən R.Köçəryana qarşı 2008-ci il prezident seçkilərindən sonra kütləvi iğtişaşlarla bağlı konstitusiya quruluşunu devirmək və külli miqdarda rüşvət almaq ittihamları irəli sürülüb.

Ermənistan mətbuatında hətta belə iddialar irəli sürülür ki, oktyabr ayında Ermənistana Avrasiya İqtisadi Birliyinin toplantısına qatılmağı nəzərdə tutan Rusiya Prezidenti həbsdə olan eks-prezident R.Köçəryanla görüşmək istəyə bilər. Köçəryanla bağlı Ermənistanda yaranan canlanmada Rusiya faktoru nəzərə çarpırmı və hansı gözləntilər ola bilər?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, Putinin təbriki ilə Köçəryan tərəfdarlarının fəallaşması arasında təbii ki, əlaqə var: "Putinin təbriki adi təbrik yox, Köçəryana hərəkətə keçmək üçün siqnal idi. Paşinyan hakimiyyətə gələndə hər kəs Rusiyanın buna səssiz qalmasına təəccüb edirdi, hətta hərbi çevriliş edəcəyi gözlənilirdi. Lakin keçən müddət sübut etdi ki, Rusiya Paşinyana hakimiyyətdə qalmaq fürsəti verməklə onun nüfuzunun itməsini, reytinqinin xeyli aşağı düşməsini gözləyib və onu elə gəldiyi kimi xalq etirazları adı altında mitinqlər təşkil etməklə yola salmaq fikrindədir.

Köçəryan tərəfdarlarının mitinqi Paşinyana xəbərdarlıq olmaqla yanaşı, Rusiyanın Ermənistanı digər xarici güclərə güzəştə getmək niyyətinin olmadığını, sonadək burada qalmaq qətiyyətinin nümayişidir. Təbii ki, Rusiya öz planlarını Köçəryan kimi sadiq adamları vasitəsilə həyata keçirir, özü də həmin adamlara sadiqliyini göstərməkdə davam edir. İstisna deyil ki, Paşinyan devriləcəyi təqdirdə Rusiya yenidən Köçəryanı hakimiyyətə gətirəcək. Artıq Ermənistanda bu narazılıq bütün sferalarda hiss edilməyə başlayıb. Paşinyan hakimiyyəti heç bir sahədə özünü doğrulda bilməyib. Daxili və xarici siyasət sahəsindəki uğursuzluqlar bir-birini əvəz edir. Ölkə iqtisadi problemlər içində boğulursa, xalqın alternativ axtarışına çıxacağı təbiidir. Bütün bu proseslər Ermənistanı böyük xaosa doğru sürükləyir. 2020-ci ilin, bütövlükdə, Cənubi Qafqaz regionu üçün həlledici il olacağı, üstəlik, separatçı rejimin Dağlıq Qarabağda qondarma "prezident" seçkiləri keçirməyə hazırlaşdığı nəzərə alınarsa, Ermənistanda və Qarabağda vəziyyətin son dərəcə gərginləşəcəyi labüddür".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Azərbaycan Paşinyanın son bəyanatlarla müharibəni tətiklədiyini dünyanın diqqətinə çatdıra bildi...

**Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli istiqamətində atılan bütün addımları Ermənistan rəhbərliyinin son dövrlərdə bir-birinin ardınca verdiyi absurd açıqlamalar, demək olar ki, heç edir. Bütün bunlar konfliktin çözümündə vasitəçilik edən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin də fəaliyyətinin üzərindən xətt çəkilməsi deməkdir.**

Eyni zamanda, baş verənlər Azərbaycanın məsələnin həlli istiqamətində hərb yoluna daha çox meyllənməsini də şərtləndirir. Xarici işlər naziri Elmar Məmmədyarov da Böyük Britaniya və Şimali İrlandiya Krallığının ölkəmizə yeni təyin olunmuş səfiri Ceyms Layl Şarpla görüşündə məsələnin bu tərəfinə toxunaraq qeyd edir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesinə Ermənistan rəhbərliyinin son bəyanatları kölgə salır və bölgədə gərginliyin artmasına xidmət edir. Nazir bütün bunların danışıqlar prosesinə xələl gətirdiyini xüsusi vurğulayıb.

Ümumiyyətlə, ekspertlər hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Nikol Paşinyanın "yeni yanaşmaları" mürəkkəb bir vəziyyət yaradır.. Düzdür, onun mövqeyi Ermənistanın özündə belə məsxərəyə qoyulmaqdadır. Çünki onun Azərbaycanın SSRİ-nin tərkibindən çıxması proseduru ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan ərazisi olaraq işğal edilməsi faktı arasında paralel aparması və bu hadisələr arasında eyniyyət axtarması hansısa hüquq və məntiqə sığmır. Eləcə də "Dağlıq Qarabağ Ermənistandır, vəssalam" kimi sərsəm bəyanata imza atan Nikol Paşinyan bununla ölkəsinin işğalçı siyasət yürütməsini təsdiqləmiş olur. Qondarma qurumun sabiq "təhlükəsizlik şurasının sədri" Vitali Balasanyan yenidən bu məsələyə nəzər salaraq bildirir ki, Ermənistanın ali hakimiyyəti Paşinyanın simasında verdiyi bəyanatla Ermənistanı işğalçı dövlət kimi tanıdığını dünyaya bəyan edib: "Paşinyanın işğal olunmuş Azərbaycan torpaqlarında səsləndirdiyi "Qarabağ Ermənistandır, vəssalam" təxribatçı çağırışı hələ də müxtəlif dairələrdə qızğın müzakirə edilir. Paşinyanın səsləndirdiyi bu bəyanatdan 1 ay keçsə də, indiyədək nə baş nazir, nə də iqtidar qanadından hər hansı biri əlavə açıqlama verib. Amma bu çağırışın altında böyük təhlükələr dayanır. Ermənistan hakimiyyəti nə barədə danışdığını bilmir. Bu cür bəyanatı yalnız siyasi cəhətdən zəif insan edə bilərdi. Əks halda bəyanatın müəllifi bununla sətiraltı nə demək istədiyini açıqlamalı idi. Siyasi reytinqi yüksək saxlamaq üçün bu cür üsullara əl atmaq olmaz".

Bu açıqlamadan aydın görünür ki, hətta ermənilər özləri də Paşinyanın absurd mövqedə olduğunu qəbul edirlər. Rusiyalı siyasi ekspert Yevgeni Mixaylov da qeyd edir ki, Paşinyanın Dağlıq Qarabağ və onun statusu ilə bağlı mövqeyi təxribatçıdır. Ekspertin fikrincə, belə yanaşma Azərbaycanla Ermənistan arasında onsuz da minimal səviyyədə olan dövlətlərarası münasibətlərin daha da kəskinləşməsi üçün səbəbdir: "Hesab edirəm ki, Paşinyan Rusiyanın birbaşa milli maraqlarının olduğu Suriyada və Yaxın Şərqdə mürəkkəb situasiyadan istifadə edərək, qəsdən vəziyyəti kəskinləşdirir. Bununla da erməni baş nazir digər problemlərlə məşğul olan güclü dövlətlərin diqqətindən yayınmaq və öz siyasi problemlərini dərhal həll etmək istəyir. Amma bu böyük yanılmadır. Çünki Moskva anlayır ki, Bakı güclü regional iştirakçı və müttəfiqdir və yeni erməni siyasətçilər Rusiyanın xeyirxahlığından yararlanmamalıdır". Ekspert bildirib ki, İrəvanın manevr etməyə çox vaxtı qalmayıb, çünki o, Moskvanın dəstəyini itirə bilər: "İndiki reallıqda Rusiya Azərbaycana öz ərazi problemlərini həll etməyə imkan verə bilər".

Digər ekspertlər də bildirir ki, Paşinyanın son açıqlamaları Ermənistanın öz öhdəliklərinə sadiq qalmağı bacarmayan, beynəlxalq hüququn prinsiplərinə məhəl qoymayan tərəf olduğunu təsdiqləyir. Eyni zamanda o da aydın görünür ki, Paşinyan bu günə qədər verdiyi sözlərin heç birinə əməl etmədi və indi buna görə də xalqın fikrini yayındırmaq üçün belə populist çıxışlar etməsi Ermənistanın özü üçün böyük problemlər yaradır. Amma bunları diqqətə almayan Paşinyan xalqı problemlərdən, yarıtmaz idarəetmədən, iflasa uğrayan xarici siyasətdən yayındırmaq məqsədilə Qarabağ məsələsi ətrafında absurd mövqe sərgiləməkdən geri çəkilmir. Çünki ölkəsində və işğal altında olan Azərbaycan ərazisində yaşayan ermənilər arasında ultramillətçi əhval-ruhiyyəni gücləndirməklə diqqəti sosial, hakimiyyətdaxili problemlərdən, yarıtmaz idarəetmədən yayındırmaq istəyir. Amma belə vəziyyətdə Azərbaycan Ermənistana qarşı daha sərt mövqe tutmaq məcburiyyətində qalır. Daha doğrusu, Bakı bu gedişlə güc variantını işə salmağa məcbur olacaq. Elə erməniləri də qorxudan məhz budur və bu səbəbdən düşmən ölkədə böyük əksəriyyət Paşinyanın son açıqlamalarını olduqca təhlükəli sayır. ATƏT-in Minsk Qrupunun həmsədrləri, eləcə də bütün dünya ictimaiyyəti yaranmış durumda hadisələrin hansı səpkidə inkiaşf edəcəyini yaxşı bilir. Onlar aydın görür ki, Ermənistan rəhbərliyi Dağlıq Qarabağ münaqişəsi üzrə gedən müzakirələrə xələl gətirməklə məşğuldur. Azərbaycan tərəfi isə buna uzun müddət dözmək niyyətində deyil.

Əslində, indiyə qədər Azərbaycan Ermənistan rəhbərliyinin hərbi təcavüzü legitimləşdirmək cəhdlərinin heç bir perspektiv vəd etməyəcəyinə, ölkəmizlə sülh əldə olunmasa, sosial-iqtisadi inkişafın mümkünsüzlüyünü anlaya biləcəyinə ümid edirdi. Bakı bildirirdi ki, regionun gələcəyi dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində, sülh şəraitində birgə yaşamasından asılıdır. Amma reallıq bundan ibarətdir ki, Azərbaycanın məsələyə belə yanaşmasını Ermənistan rəhbərliyi adekvat qiymətləndirməyə çətinlik çəkir. Elə bu da savaşı getdikcə daha çox tətikləyən faktora çevrilir. Bunu ehtiyatda olan polkovnik Şair Ramaldanov da xüsusi olaraq vurğulayır: "Son vaxtlar Ermənistanın hakim dairələrinin, sabiq prezidentlər də daxil olmaqla, verdikləri bəyanatlar göstərir ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün aparılan danışıqlar gözdən pərdə asmaq məqsədi daşıyır". O bildirib ki, məhz bu vəziyyətdə ATƏT-in Minsk Qrupu iflic vəziyyətə düşüb: "ATƏT-in Minsk Qrupunun işi Dağlıq Qarabağın işğal müddətini uzatmaqdır. Çünki bu gün onların əldə etdiyi nəticə budur. Ona görə Azərbaycan tərəfi yalnız konstruktiv mövqe ətrafında danışıqlar apara bilər. Bu olmadığı təqdirdə, "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın olmayacaq" kimi düşüncəyə sahib olan Ermənistan tərəfi ilə Bakı danışıq aparmalı deyil".

Ş.Ramaldanov qeyd edib ki, hazırkı durumda işğala son qoymaq üçün Azərbaycanın yeganə yolu müharibədir: "Azərbaycan konkret antiterror əməliyyatı apararaq torpaqlarını işğaldan azad etməlidir. Çünki Azərbaycan üçün düşmən başqa bir yol qoymayıb. Ona görə də düşmən sülh danışıqlarını Dağlıq Qarabağın Azərbaycandan ayrılması ilə bağlayır. Belədirsə, danışıqlar nəyə lazımdır? Baş nazirləri Paşinyan deyir ki, "Dağlıq Qarabağ Azərbaycanın olmayacaq". Keçmiş prezident Serj Sarkisyan da bunu təkrar edir. Belə çıxır ki, indiyə qədər Azərbaycanı aldadıblar və bu danışıqlarda beynəlxalq qurumların iştirakı da Ermənistana xidmət etməkdir. Haçansa zəif Ermənistan müəyyən bir şəkildə ordan-burdan silahlandırılır, Azərbaycan da öz hesabına silah alır. Burada nəticə odur ki, Rusiya və digər dövlətlərin hərbi sənayesi inkişaf edir. Ancaq münaqişənin həlli yönündə bir faiz belə irəliləyiş yoxdur". Ehtiyatda olan polkovnik hesab edir ki, Azərbaycan artıq gözləmə mövqeyindən əl çəkməlidir: "Biz nəyi gözləyirik? Nə qədər gözləyəcəyik? Artıq Ermənistan tez-tez qeyd etdiyim fikirləri ifadə etməklə bizdə müəyyən bir şəkildə vərdiş yaratmaq istəyir ki, artıq Qarabağ Azərbaycanın deyil. Digər tərəfdən, beynəlxalq qurumlar bunu tez-tez səsləndirməklə onları da buna vərdiş etdirməyə çalışırlar. Biz isə bəyanat verərək oturub gözləyirik. Nəyi gözləyirik? Ya yumruğumuzu masaya vurub məsələni həll etməliyik, ya da başqa yol yoxdur. Bizim gücümüz də, iradəmiz də, silahımız da var. Biz birlikdə öz torpaqlarımızı işğalçıdan azad edərək, qələbə bayrağını bərpa olunmuş sərhədlərimizdə qaldırmalıyıq. Başqa yolumuz yoxdur". Digər ekspertlərin böyük əksəriyyəti də məsələyə məhz bu prizmadan yanaşır. Ermənistanın konstruktiv mövqe göstərməməsi, əslində başqa seçim yeri də qoymur. Azərbaycan tərəfi hərbi əməliyyatlara başalamamaq qərarı ilə düşmənə düşünmək üçün şans versə də, güzəştə getsə də, görünən budur ki, İrəvan bunları lazımınca qiymətləndirməyi bacarmır. Elə bu səbəbdən Qarabağda yeni böyük savaş gözlənir və onun başlanması artıq an məsələləsidir. Rusiyalı politoloq Aleksandr Skakov da vurğulayır ki, Azərbaycan və Ermənistan arasında hər an yeni savaş alovlana bilər: "Sülh prosesi başlamayıb. Münaqişənin həlli olmadan həqiqi sülhdən danışmaq olmaz. Ona görə hər an savaş başlaya bilər". Bütün bunlara səbəb odur ki, Erməni rəhbərliyi üzündən danışıqların hansısa nəticələr verəcəyinə, faktiki olaraq, artıq heç kim inanmır. Ekspertlərin təhlili bu yöndədir ki, əslində, müharibə közərmiş haldadır, onun alovlanması üçünsə zaman qısalır. Bütün bunlara görə məsuliyyət daşıyan yeganə tərəf qismində isə Ermənistan çıxış edir. Bunu artıq beynəlxalq ictimaiyyət də aydın surətdə görür. Hər halda, hadisələrin gedişi yaxın tezlikdə yeni Qarabağ savaşını istisna etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin son Azərbaycan və Ermənistan səfərləri ətrafında maraqlı məqamlar üzə çıxmaqdadır. Yayılan məlumatlardan belə bəlli olur ki, Nikolay Patruşevin Azərbaycan səfəri daha çox Bakı ilə əməkdaşlığın dərinləşməsinə yönəldiyi halda, Ermənistana təzyiq xarakteri daşıyır.**

# Patruşevin İrəvana və Bakıya tam fərqli məzmunlarda iki səfəri...

Bunu Ermənistanın "Iragir.am" portalı da təsdiq edir. Portal bu xüsusda yazır: "Azərbaycana səfər edən Nikolay Patruşev avqustun 12-də İrəvanda olub. Onun səfəri və görüşləri haqda, demək olar, məlumat yoxdur. Rusiya tərəfinin məlumatında qeyd olunub ki, Nikol Paşinyanla görüşdə "həmsöhbətlər beynəlxalq gündəliyin bir sıra aktual problemlərinə, xüsusən də Suriya xalqına humanitar yardım göstərmək və Suriyada dinc yaşayışı bərpa etmək məsələsinə toxunublar".

Ermənistan hökumətinin rəsmi məlumatında Suriyanın adı çəkilmir. Ermənistan baş nazirinin mətbuat katibi Vladimir Karapetyan bununla bağlı qeyd edib: "Məsələ Rusiya tərəfinin təşəbbüsü ilə qaldırılıb". Karapetyan deyib:"Təbii, Rusiya Ermənistanın Suriyada humanitar missiyaya qatılmaq qərarını yüksək dəyərləndirir". Bu arada, Ermənistan qəzetləri yazır ki, Patruşev Suriyadakı missiyanı genişləndirməyi təklif etmək üçün Ermənistana gəlmişdi. Fikir var ki, Patruşev Rusiyanın Amulsara görə də mövqeyini ifadə edib. Bunun belə olub-olmadığını söyləmək çətindir, amma Paşinyan Patruşevin səfərindən sonra özünün iki baş müşavirini və köməkçisini işdən çıxarıb, Amulsarla bağlı əhvalat isə tədricən buna keçib ki, Ermənistan Amulsarın Britaniya-Amerika şirkəti tərəfindən istismarına yasağı götürməyib. Amerikanın Ermənistandakı ticarət palatası və Britaniya səfirliyi artıq bu haqda məyusluğunu ifadə edib. Patruşev Ermənistana missiyasını yerinə yetirilmiş sayıbmı ki, indi də Bakıya gedib?".



Erməni mediası bildirir ki, həm Suriyada ordu məsələsi, həm də Amulsar olayı İrəvan üçün ciddi problemlər yarada bilər. Çünki hər iki halda Qərbin yanaşması Rusiyanın istəklərindən fərqlidir. İndilikdə isə İrəvan daha çox Rusiyanın istəklərini yerinə yetirməyə çalışır və bu hal da Ermənistanı Qərb təzyiqlərinin hədəfinə çevirir. Ermənistanda nəşr edilən "168 jam" qəzeti də yazır ki, artıq Suriyaya hərbçilər göndərilməsi ətrafında qalmaqal böyüyür və belə bir vaxtda Moskvanın İrəvandan Suriyaya əlavə hərbçilər göndərməsini tələb etməsi Ermənistanı daha çox təzyiq altında qoyacaq. Qəzet xatırladır ki, elə bu günlərdə ABŞ administrasiyası Ermənistan hakimiyyəti qarşısında hərbi kontingentin Suriyadan geri çəkilməsi haqda tələb qoyub: "Elə bir neçə gün əvvəl mətbuatda müdafiə nazirinin, xarici işlər nazirinin və bir neçə səfirin iştirakı ilə bu məsələ ilə əlaqəli qapalı toplantı keçirildiyi haqda xəbər yayılıb. Lakin XİN toplantı xəbərini təkzib edib.

XİN təkzib etsə də, mənbələr deyiblər ki, həmin mesaj Ermənistan hakimiyyətinə 2019-cu il avqustun 12-13-də, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin İrəvana səfərindən dərhal sonra çatdırılıb. Deyilənlərə görə, Patruşev Ermənistan hakimiyyətindən bunun əksini - Suriyadakı erməni hərbi kontingentinin sayının artırılmasını tələb etmişdi. Məlumatda deyilir ki, ABŞ Ermənistanın Suriyaya hərbi kontingent göndərməsi ilə bağlı narazılığını bu ölkənin BMT-dəki səfiri Mqer Marqaryan vasitəsilə çatdırıb. Bildirilib ki, bu məsələ Ermənistan-ABŞ münasibətlərinə zərbə vurur. Həmin mənbənin bildirdiyinə görə, kontingent çıxarılmasa, bunun ikitərəfli münasibətlərə təsiri olacaq, üstəlik, ABŞ Ermənistana verdiyi minatəmizləyən avadanlığın Suriyada istifadə edilməsinə qadağa qoyacaq. Bu mesajı səfir müdafiə naziri David Tonoyana və xarici işlər naziri Zöhrab Mnatsakanyana çatdırıb. Mnatsakanyan ABŞ-a necə cavab veriləcəyi barədə narahatlıq ifadə edib, nazirlər vəziyyətdən çıxış yolu axtarıblar. Çünki hər iki variantda Ermənistan üçün problem yaranması qaçılmazdır. Həmin mənbələr təsdiq edir ki, sonda Tonoyan kontingentin çıxarılmasına qəti qarşı çıxıb. Baş nazir Paşinyanın Rusiya və ABŞ-ın tələblərinə necə cavab verəcəyi məlum deyil. Ermənistan Rusiyanın tələbi ilə Suriyaya azsaylı hərbi kontingent göndərib və ABŞ dəfələrlə buna qarşı öz mövqeyini bildirib". Beləliklə, yaranan vəziyyət bir daha təsdiq edir ki, Ermənistan yaxın tezlikdə ya ABŞ-ın, ya da Rusiyanın sərt təzyiqlərinə məruz qalacaq. Artıq ABŞ tərəfi, erməni hərbi heyəti Suriyadan çıxarılmayacağı təqdirdə, bunun münasibətlərə mənfi təsir edəcəyini bəyan edib. ABŞ-ın istəyinə əməl olunması isə Rusiyanı qəzəbləndirəcək. Yəni hər iki halda Ermənistan problemlə üzləşəcək. İndilikdə isə Rusiyanın istəklərinə əməl olunması heç də Moskvanın İrəvana xoş münasibət sərgiləməsinə də gətirib çıxarmır. Moskva hələ də Paşinyan iqtidarına inanmır və özünə sadiq adamların həbsinə görə İrəvana təzyiqləri artırır. Bunu "Vətən və Şərəf" partiyasının sədri Qarnik Marqaryan da təsdiq edir. O, Rusiya prezidenti Vladimir Putinin Robert Köçəryanı təbrik etməsini buna misal kimi göstərir və bunun Ermənistana təzyiq kimi dəyərləndirilməli olduunu deyir. Marqaryan bildirib ki, rus sərmayələrinin sırası hissediləcək dərəcədə seyrəlib və bu boşuna baş vermir: "Həbsdə olan şəxsə ciddi və əsaslı ittiham irəli sürülüb. İstintaq orqanının nümayəndələri uşaq deyil, ciddi hüquqşünaslardır və kifayət qədər əsas olduğuna görə onu yenidən həbs ediblər. İndi Moskva öz təzyiqləri ilə Köçəryanı xilas etməyə çalışır".

Marqaryan bildirib ki, Levon Ter-Petrosyan-Yeltsin cütlüyü bir zamanlar həqiqətən problemləri həll edirdi. Köçəryanın vaxtında isə strateji vacib təyinatlı bir çox obyektlər ucuz qiymətə Rusiyaya verildi: "İndi də təkidlə soruşuram, niyə bizim strateji şirkətlərin böyük bir hissəsi Rusiyaya hədiyyə edildi və indi niyə Rusiyanın təsiri altındadır?". Marqaryan qeyd edib ki, Moskva İrəvana təzyiqlər göstərməkdə davam edəcək. Amma buna qarşı çıxmaq üçün Ermənistan meydanda tək qalıb və Qərb onu himayə etmir. Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanın ciddi təzyiqlər altında olacağını bəri başdan deməyə əsas verir.

***Tahir TAĞIYEV***

# Ermənistanda ictimai-siyasi fikir Avrasiya İqtisadi Birliyindən tam uzaqlaşıb - Rusiyaya ciddi siqnal...

**Sentyabrın 3-də Ermənistanın Avrasiya İqtisadi İttifaqına qoşulmasının 6 ili tamam oldu. Maraqlıdır ki, aradan bir belə müddət keçsə də, hələ ki, erməni ictimai rəyi Ermənistanın Aİİ-yə qoşulmasını həzm edə bilmir. Bunu utancverici qərar hesab edir.**



## *Arzuxan Əlizadə: "Bu o deməkdir ki, Ermənistan cəmiyyəti öz gələcəyini Aİİ-də yox, Avropa İttifaqına inteqrasiyada görür"*

Erməni mətbuatı yazır ki, Ermənistanda "məxməri inqilab"ın baş verməsinə baxmayaraq, ölkə Avrasiya bataqlığından çıxa bilmir. Onlar hesab edirlər ki, Aİİ-yə qoşulmaq iqtisadi baxımdan Ermənistana fayda vermir.

Ermənistan İşgötürənlər Birliyinin rəhbəri Qagik Makaryan xəbərdarlıq edib ki, 2020-ci ilin yanvar ayından etibarən gömrük imtiyazları öz qüvvəsini itirəcək və biz qiymət artımına hazır olmalıyıq. Digər tərəfdən, qeyd edilir ki, Ermənistan qurumda təmsil olunsa da, Rusiya Miqran Poqosyanın ekstradisiyasına qərar verməyib. Həmçinin, Rusiyadan pul köçürmələri azalır.

Ermənilər belə qənaətə gəliblər ki, Rusiya onları ayrıseçkilik vəziyyətinə gətirən birtərəfli qərar qəbul edib. Ermənistanda elə hesab edirlər ki, Rusiyada müvafiq qanunun qəbul edilməsi, əslində, Aİİ-yə dair razılaşmaya ziddir. Ermənistan xarici işlər nazirinin müavini Şavarş Koçaryan regional məsələlər və Avrasiya inteqrasiyası məsələləri üzrə daimi parlament komissiyasında Rusiya Federasiyasında Ermənistanın sürücülük vəsiqələri ilə sürücülərin qarşılaşdıqları problemlərlə bağlı fikirlərini bildirib. O qeyd edib ki, Rusiya Federasiyasında qəbul edilmiş sürücülük vəsiqələri haqqında qanun Aİİ-nin səlahiyyətinə daxil deyil, əks halda Ermənistan buna qarşı çıxardı: "Bu məsələ Aİİ-də müzakirə olundu, buna görə biz fərqli bir yol tutduq. Deyirlər ki, hamı bu sahədə razılaşma imzalasın, amma bu çox uzun bir prosesdir və sürücülərimiz bu gün problemlərlə üzləşirlər. Qəbul edilmiş qanun Ermənistana qarşı ayrıseçkilik xarakteri daşıyır, çünki bu tələb digər ölkələrə şamil edilmir".

Görünən odur ki, Ermənistan ictimai-siyasi rəyində Aİİ-yə qarşı olan mənfi fikir bu ölkənin Rusiya ilə olan strateji müttəfiqlik münasibətlərinə kölgə salır. Bir zamanlar prezident Serj Sarkisyan quruma qoşulmaqla bağlı qərar versə də, erməni cəmiyyəti bundan razı deyil.

*"Nə qədər ki, ölkə iqtisadiyyatı yerində sayır, Aİİ ilə bağlı etirazlar daha da arta bilər"*

Məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, bu o deməkdir ki, Ermənistan cəmiyyəti öz gələcəyini Aİİ-də yox, Avropa İttifaqına inteqrasiyada görür: "Ancaq Ermənistan hakimiyyəti bunu açıq bəyan etməyə qorxur. Əvvəlki hakimiyyət sırf Rusiyanın maraqlarını nəzərə aldığı üçün, həmin quruma qoşuldu. "Qarabağ klanı"nı təmsil edən qüvvələr buna məcbur idilər. Altı il əvvəl Ermənistanla Avropa İttifaqı arasında assosiativ sazişin imzalanması gündəmdə idi. O vaxt Kreml Sarkisyan hakimiyyətinə ciddi təzyiqlər etdi. Son nəticədə Sarkisyan geri addım atdı və Aİİ-ni seçdi. Bunun nəticəsində Ermənistan Avropadan gələ biləcək sərmayədən məhrum oldu. Ermənilər də bunun fərqindədirlər.

**Bir il əvvəl Ermənistanda yeni qüvvələr hakimiyyətə gəldiyi üçün, indi Aİİ ilə bağlı etirazlar daha yüksək səslə səslənir. Əslində, Paşinyan bu yöndə etirazlarda maraqlıdır, sadəcə, qorxur bunu bəyan etməyə. Fikirləşir ki, indi bunu etsə, bu ona baha başa gələr. Hesab edirəm ki, bütün bunlar Rusiyaya açıq və dolayı mesajdır. Nə qədər ki, ölkə iqtisadiyyatı yerində sayır, Aİİ ilə bağlı etirazlar daha da arta bilər".**

*Vidadi ORDAHALLI*

# Qarabağ erməniləri separatçı rejimə qarşı qiyama qalxa bilər...

**"Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq erməni icmasına səslənirik və onları tez bir zamanda əsarəti altında yaşadıqları qanunsuz cinayətkar rejimin nəzarətindən qurtulmağa və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində hər iki icmanın ədalətli və daimi sülh şəraitində birgə yaşaması üçün çağırışımızı qəbul etməyə dəvət edirik".**



## *Fikrət Sadıqov: "Bu çağırış o deməkdir ki, bundan sonra normal yaşamaq, inkişaf etmək istəyirsinizsə, o zaman Bakı ilə yaxınlaşın"*

Bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının ölkəmizin işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejimin qeyd etdiyi "müstəqillik günü" ilə bağlı bəyanatında yer alıb. Bəyanatda deyilir ki, Ermənistan KİV-ində yayılan məlumata əsasən, 2 sentyabr 2019-cu il tarixində Azərbaycanın işğal edilmiş ərazilərindəki qondarma cinayətkar rejim "müstəqillik günü" adı altında növbəti təxribat xarakterli "tədbirlər" keçirməklə məşğuldur: "Cinayətkar hərbi xunta tərəfindən məsxərə xarakterli növbəti "müstəqillik günü tədbirlərinin" qeyd edilməsi bir daha təsdiq edir ki, Ermənistan və onun əlaltısı olan cinayətkar rejim münaqişənin sülh yolu ilə tənzimlənməsində maraqlı deyil".

Qeyd edilir ki, Ermənistan işğalçı siyasəti ilə özünü iqtisadi, siyasi və s. cəhətlərdən regionda inkişafdan geri salmaqla və özünü uçuruma aparmaqla kifayətlənməyərək, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasını aldadaraq, öz məkrli siyasəti üçün istifadə etməkdə davam edir: "Erməni icması bu yalançı və saxta "matriks"dən azad olmalı və yeganə çıxış yolu olan - azərbaycanlı icma ilə bir yerdə Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ədalətli və daimi sülhün bərqərar olması üçün addım atmalıdır".

Reallıq ondan ibarətdir ki, Dağlıq Qarabağdakı erməni icması Ermənistandakı xunta rejiminin və bir qrup separatçının girovuna çevrilib. İşğalın davam etməsi erməni icmasının ağır siyasi və iqtisadi şərtlər altında yaşamasına rəvac verir. Hansı ki, Azərbaycanın tərkibində olsalar, o zaman mənzərə daha fərqli olar. Ona görə də Qarabağdakı erməni icması xunta rejiminə qarşı nə qədər tez qalxsa, bu bir o qədər onların xeyrinə olar. O baxımdan ekspertlər bunu necə dəyərləndirirlər?

*"Bunun üçün də erməni icması özündə güc tapıb xunta rejiminə qarşı çıxmalıdır"*

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Qarabağdakı erməni icması bu çağırışdan nəticə çıxarmalı və xunta rejiminə qarşı mövqe ortaya qoymalıdır: "Məsələ ondadır ki, uzun illər Dağlıq Qarabağda azərbaycanlılarla ermənilər normal şəkildə birgə yaşayıblar. Qarabağ Azərbaycanın tərkib hissəsi kimi inkişaf edib. O cümlədən, bir sıra uğurlara nail olub. Bu çağırış o deməkdir ki, bundan sonra normal yaşamaq, inkişaf etmək istəyirsinizsə, o zaman Bakı ilə yaxınlaşın. Nicat yolu azərbaycanlı icması ilə birgə yaşamaqdan keçir. Bunun üçün də erməni icması özündə güc tapıb xunta rejiminə qarşı çıxmalıdır.

Ayağa qalxıb öz sözlərini deməlidirlər. Nə vaxta qədər iqtisadi baxımdan təcrid olunmuş vəziyyətdə yaşayacaqlar? Bir qrup separatçı tərəfindən erməni icmasının idarə olunması onlara heç bir gələcək vəd etmir. Mövcud vəziyyətlə barışsalar, onların taleyi acınacaqlı olacaq. Qarabağdakı separatçı rejim artıq dalana dirənir. Ona görə də Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının çağırışı sağlam əsaslara söykənir. Erməni icması bunu nə qədər tez başa düşsə, bu bir o qədər onların xeyrinə olacaq. Çünki Azərbaycan heç vaxt işğalla barışmayacaq. Bu baxımdan hesab edirəm ki, erməni icması bundan müsbət mənada nəticə çıxarmalıdır".

*Vidadi ORDAHALLI*

**Avropaya qaz tədarükü ətrafında rəqabətin getdikcə daha da dərinləşməsi müşahidə olunmaqdadır. Həm ABŞ, həm də Rusiya indiki şəraitdə Avropaya qaz satışı uğrunda, belə görünür, daha sərt rəqabətə başlayıb. Avropa ölkələri özləri də bu məsələdə iki cəbhəyə bölünüb.**

# Qaz məsələsi Avropanı iki qütbə ayırdıqca hər tərəfdə Azərbaycan qazına ehtiyac artır...




Onların bir qismi ABŞ, digər qismi isə Rusiya qazını almağa tərəfdardır. Burada ABŞ qazı ilə bağlı problem onun baha olması və yalnız tanker vasitəsilə Avropaya çatdırılmasıdır. Rusiya qazı isə siyasi səbəblərdən çəkişmə predmetidir.

Məhz belə bir vaxtda ABŞ, Polşa və Ukrayna təbii qaz tədarükü sahəsində əməkdaşlıq haqqında saziş imzalayıb. Saziş Ukrayna qaz bazarının, Polşanın təbii qaz idxal infrastrukturunun, Ukraynadakı qaz anbarı infrastrukturunun və ABŞ qazının ixracı sahəsində əməkdaşlığa aiddir. Sənədi imzalayan dövlətlər Rusiyanın "Şimal axını-2" qaz kəməri layihəsinin bütün Avropa üçün təhlükə yaratdığını da bildiriblər. Ukrayna prezidenti Vladimir Zelenski isə sözügedən layihənin Avropa ölkələri üçün qəbuledilməz olduğunu bildirərək, bununla yanaşı, təbii qaz tədarükünün şaxələndirilməsinin vacibliyini vurğulayıb. Polşa prezidenti Anjey Duda da eyni mövqeyni bölüşür. Onlar Ukrayna-Polşa-ABŞ üçbucağı çərçivəsində enerji müttəfiqliyinin Rusiyaya zərbə olacağını da bəyan ediblər. Rusiyalı senator Aleksey Puşkov isə bu məsələyə belə cavab verib ki, Ukrayna və Polşa prezidentləri öz cibləri üçün narahatlıq keçirir: "Zelenski və Duda bir həyəcan fiti çalırlar, amma əslində "Şimal axını-2" Avropa üçün təhdid deyil. Kiyev Rusiya qazı tranzitindən gələn pulu itirməkdən qorxur, Varşava isə ABŞ-dan aldığı bahalı maye qazı qonşularına satmağı xəyal edir. Bütün təhdidlər yalnız onların ciblərinədir. Avropanın bununla əlaqəsi yoxdur".

İndilikdə isə Almaniya, İtaliya və bir sıra digər Avropa ölkələrinin "Şimal axını-2" ilə bağlı müsbət mövqeləri layihənin hələlik sürətlə çəkilməsinə rəvac verir. Amma Danimarkanın ekoloji standartlarla bağlı tələbi "Şimal axını-2" layihəsinə ciddi əngəl ola bilər. "Moody"s" beynəlxalq reytinq agentliyinin Rusiya və MDB ölkələrinin neft-qaz sektoru üzrə aparıcı analitiki Denis Perevezentsevin sözlərinə görə, Danimarka Energetika Agentliyinin "Şimal axını-2" şirkətindən Bornholm adasının cənubundakı iqtisadi zonada qaz kəmərinin ekologiyaya təsiri ilə bağlı hesabat istəməsi sözügedən layihənin vaxtında başa çatdırılması üçün ciddi maneə yaradacaq. Həmin zona adanın cənubunda və Danimarkanın ərazi sularında yerləşir. Plana görə isə, "Şimal axını-2" boru xəttinin cari ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulurdu. Ekspert bildirib ki, yeni marşrutun seçilməsi bir neçə ay davam edə bilər. Bundan başqa, Danimarka sularında boru kəmərlərinin çəkilməsi də ikiüç ay vaxt aparacaq. D.Perevezentsev hesab edir ki, istifadəyə verilmə müddətinin gecikdirilməsi tranzit üzrə danışıqlarda "Qazprom"un mövqeyini zəiflədəcək: "Yeni tələblər təbii qazın Ukrayna ərazisindən tranziti öhdəliklərini illik 40-50 milyard kubmetr artıra bilər. Bu, əvvəllər nəzərdə tutulduğundan xeyli çoxdur. Nəticədə tranzit xərcləri "Şimal axını-2" marşrutu ilə planlaşdırılandan daha yüksək olacaq".

Xatırladaq ki, "Şimal axını-2" illik 55 milyard kubmetr qazın nəqlini həyata keçirəcək boru kəmərinin Baltik dənizi ilə çəkilməsini nəzərdə tutur. Boru xətti Rusiya, Finlandiya, İsveç, Danimarka və Almaniyanın ərazi və ya müstəsna iqtisadi zonalarından keçməlidir. Adıçəkilən ölkələrdən yalnız Danimarka tikinti işlərinin aparılmasına icazə verməyib.

Bu durumda Avropanın rahat və əlverişli şərtlərlə ala biləcəyi qaz yalnız Azərbaycandan gəlir. "Şahdəniz-2" yatağından çıxarılan qazı Avropaya nəql edəcək TANAP və TAP boru kəmərləri artıq birləşib. Türkiyə-yunan sərhədlərindən başlanan TAP boru kəməri layihəsi Avropa Komissiyasının ortaq maraqlara xidmət edən 33 prioritet enerji təhlükəsizliyi layihəsi siyahısına salınıb. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Amma görünən budur ki, Azərbaycan qazını alacaq Avropa ölkələrinin sayı artacaq. Belə ki, Albaniya, Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro Azərbaycan qazını Avropaya nəql edəcək İon - Adriatik boru kəmərinin (İAP) ilkin layihəsini 2020-ci ilin sentyabr ayınadək hazırlamaq niyyətindədir. Monteneqro İqtisadiyyat Nazirliyindəki mənbə bildirib: "Hazırda layihəyə dair işlər nəzərdə tutulmuş cədvələ uyğun davam edir, biz həm görülən işlərin sürətindən, həm də tamamlanan işlərin yüksək keyfiyyətindən razıyıq".

Xatırladaq ki, İAP Xorvatiya, Monteneqro, Albaniya ərazisindən keçəcək, illik nəqletmə gücü isə 5 milyard kubmetr həcmində nəzərdə tutulur. Azərbaycan Dövlət Neft Şirkəti, Xorvatiya, Albaniya, Bosniya-Herseqovina, Monteneqro hökumətləri arasında 2016-cı ilin avqust ayında İAP tikintisinə dair anlaşma memorandumu imzalanıb.

Bu layihənin işə düşməsi isə daha çox Avropa ölkəsinə Azərbaycan qazı almaq imkanı verir. Bununla Azərbaycan Avropanın enerji təhlükəsizliyinə növbəti mühüm töhfəsini verməyə hazırlaşır. Yeni marşrutların açılması sayəsində Avropa təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetr olan Azərbaycandan təbii qaz alacaq. Qarşıdakı dövr ərzində isə Azərbaycan vasitəsilə Avropa İran, Türkmənistan qazını da idxal etməyi düşünür. Bu isə o deməkdir ki, Azərbaycan üzərindən Avropaya daha böyük həcmdə qaz axacaq.

***Nahid SALAYEV***

**Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sədri Rauf Qurbanov sentyabrın 2-də Venesuela Bolivar Respublikasının Azərbaycanda rəsmi səfərdə olan xarici işlər nazirinin Asiya, Yaxın Şərq, Okeaniya dövlətləri üzrə müavini Ruben Dario Molina ilə görüşüb.**

# Azərbaycan kommunistlərinin liderini Venesuela hakimiyyətinə bağlayan nədir...

## ***Rauf Qurbanov:*** *"Səfirlikdən xəbər gəldi ki, ölkə rəsmisi Ruben Dario Molina mənimlə görüşmək istəyir"*



Görüşdə beynəlxalq vəziyyət, Azərbaycan-Venesuela dövlətlərarası iqtisadi və siyasi əlaqələrinin genişləndirilməsi məsələləri ətraflı müzakirə olunub.

Sözügedən görüşlə bağlı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sədri Rauf Qurbanova bir sıra suallar ünvanladıq.

**- Rauf müəllim, Venesuela rəsmisi ilə görüşməyiniz hansı zərurətdən irəli gəldi?**

- Əvvəla Azərbaycan Kommunist Partiyası Beynəlxalq Kommunist Təşkilatının tam səlahiyyətli üzvüdür. Bizim partiyanın dünyanın bir çox ölkəsi ilə, o cümlədən, sosialist ölkələri ilə sıx əlaqələri var. Dünyadakı solyönümlü siyasi partiyalarla sıx əlaqələrimiz var. Hansı dövlətlərdə solçular hakimiyyətdədir, bizim həmin ölkələrlə əlaqələrimiz daha sıxdır. O cümlədən, Venesuela ilə. Bu, Venesuela rəsmiləri ilə ikinci görüşümüzdür. Birinci dəfə Venesuelanın Bakıda səfirliyi açılandan sonra belə bir görüş keçirildi. Səfirin təşəbbüsü ilə ilk görüş keçirildi. Bu görüşün baş tutmasında Venesuela Kommunist Partiyasının Mərkəzi Komitəsinin üzvü, Kommunist Gənclər İttifaqının lideri Ramon Paulos əlaqələndirici rol oynadı. Yeri gəlmişkən qeyd edim ki, onun anası milliyyətcə rus olsa da, yerli bakılıdır. O, Moskvadan Bakıya gəldi və məndən xahiş etdi ki, səfir görüşmək istəyir. Mən də bu təşəbbüsü qəbul etdim və səfirlə ilk görüşümüz belə alındı. O vaxtdan partiyamız Venesuelanın Bakıda səfirliyi ilə işgüzar əlaqədədir. Səfirlikdən xəbər gəldi ki, ölkə rəsmisi Ruben Dario Molina mənimlə görüşmək istəyir. Mən də bunu qəbul etdim. Beləcə, sentyabrın 3-də məlum görüşümüz alındı.

**- Görüşdə hansı məsələlər müzakirə edildi?**

- Görüşdə dövlətlərarası münasibətlərin daha da inkişaf etdirilməsi, iki ölkə xalqları arasında olan dostluq və mehribanlıq münasibətlərinin dərinləşdirilməsi müzakirə edildi. Bildirdim ki, Azərbaycan Kommunist Partiyası müxalifətdə olsa da, çalışırıq Azərbaycanla dost olan dövlətlərlə əlaqələrin qurulmasına öz töhfəmizi verək. Hər bir siyasi partiya çalışmalıdır ki, öz dövlətinə, millətinə xidmət etsin. Biz də bir partiya olaraq öz dövlətimizin suverenliyinin möhkəmləndirilməsi, onun beynəlxalq aləmdə nüfuzunun artırılması üçün nə mümkündürsə, onu edirik.

**- Venesuela ilə həmrəy olmaq həm də anti-ABŞ mövqeyinə sahib olmaq anlamına gəlir. Sizcə bu, Azərbaycan-**

*"Partiyamız müxalifətdə olsa da, çalışırıq Azərbaycanla dost olan dövlətlərlə əlaqələrin qurulmasına öz töhfəmizi verək"*

**da necə qarşılana bilər?**

- Azərbaycan Kommunist Partiyası və ümumiyyətlə, dünya kommunist hərəkatı imperializm, kapitalizm əleyhinə olan bir təşkilatdır. Venesuelada bu ölkənin milli xarakterinə uyğun olaraq sosializm quruluşu mövcuddur. AKP də dünyada hər hansı ədalətsizliyə qarşı öz mövqeyini bildirir, səsini qaldırır. Biz hesab edirik ki, imperialist qüvvələrin bu ölkəyə müdaxiləsi yolverilməzdir. ABŞ tərəfindən Venesuela hakimiyyətinə təzyiqlər Azərbaycan kommunistləri tərəfindən pislənir. Ona görə də biz Venesuela xalqı ilə həmrəyik. Görüşdə onu da bildirdim ki, Azərbaycan xalqı müharibənin acılarının nədən ibarət olduğunu yaxşı bilir. 90-cı illərin əvvəlləri çoxunun yadındadır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda müstəqilliyin və əminamanlığın təminatını yaratdı.

***Vidadi ORDAHALLI***

# DOST nə az, nə çox - 40 min işsizə iş verib

**Azərbaycanda işsizliyin minimuma endirilməsi sahəsində dövlət səviyyəsində müxtəlif işlər görülür, layihələr həyata keçirilir. "İşsizin dostu" proqramı da bu mühüm layihələrdən biri kimi fayda verməkdədir.**




***Ruslan Atakişiyev:** "40 minədək vətəndaşın "İşsizin dostu" proqramı çərçivəsində ictimai işlə təmin edilməsi müsbət sosial-ictimai hadisədir"*

*"İşsizlərin əməyindən ictimai işlərdə istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir"*

Yayılan rəsmi məlumatlara görə, Prezident İlham Əliyevin təşəbbüsü əsasında həyata keçirilən "İşsizin dostu" proqramı çərçivəsində 40 minədək işsiz və işaxtaran şəxs haqqı ödənilən ictimai işlərə cəlb edilib. Bu işlərə sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən, yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və s. daxildir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyinin) "DOST İş Mərkəzi" tərəfindən icra olunan proqrama cəlb edilənlərin hər biri ilə əmək müqaviləsi bağlanır və elektron sistemdə qeydiyyatdan keçirilərək rəsmiləşdirilir.

Məlumatlara görə, "İşsizin dostu" proqramı çərçivəsində ictimai işlərlə təmin olunan işçilərin siyahısı yaxın günlərdə açıqlanacaq, hazırda isə elektron proqram təminatı üzərində son tamamlama işləri aparılır.

İqtisadçı Ruslan Atakişiyev hesab edir ki, "İşsizin dostu" proqramı Azərbaycanda işsizlərin və işaxtaranların sayının azalmasına səbəb olacaq. R.Atakişiyevin sözlərinə görə, iş tapa bilməyən insanların bu proqrama cəlb edilməsi, onların bacarıqlarının ictimai işlərə uyğunlaşdırılması olduqca əhəmiyyətlidir. "Ümumiyyətlə, işsizlərin və işaxtaranların işlə təmin olunması məsələsi bir neçə istiqamətdə həyata keçirilir. Təbii ki, bunlardan biri işsizlərin qeydiyyata alınmasıdır, onların aktiv şəkildə iş axtarmağa təşviq olunmasıdır. Bu proqramda diqqətçəkən məqamlardan biri işsizlərin peşə hazırlığının artırılması və onların müasir standartlara uyğun işçilər kimi formalaşdırılmasıdır. Özəl sektorda işlə bağlı xüsusi tələblər var ki, onlar o tələblərə cavab verən işçiləri işə götürürlər. Bu da məcburi qaydada işsizlərin işə götürülməsinin təmin edilməsinə xidmət etmir. Ona görə də "İşsizin dostu" proqramı çərçivəsində işsizlərin və işaxtaranların əvəzi ödənilən ictimai işlərə cəlb edilməsi amili işsizliyin aradan qaldırılmasına böyük köməklik göstərir".

Xarici təcrübədən misal çəkən R.Atakişiyevin sözlərinə görə, İngiltərədə belə bir təcrübə var ki, evdə xəstə uşağa baxanlara sosial işə görə vəsait ödənilir. O vurğuladı ki, Azərbaycanda da "Sosial Sifariş Haqqında" Azərbaycan Respublikasının Qanunu var. Bu da birbaşa sosial sifarişlərlə bağlıdır. "Məsələn, Avropada ictimai işlərə cəlb edilən insanlar yolları təmizləyir, zibilləri yığır, ağaclar əkir, parklara baxır və s.

Bilirsiniz ki, Azərbaycanda artıq minimum əməkhaqqı 250 manatdır və ictimai işə cəlb edilən işsizlər, işaxtaranlar, ən azından, ayda 250 manat əməkhaqqı alacaqlar, bu da onların həyat şəraitinə müsbət təsir göstərəcək. 40 minədək vətəndaşın "İşsizin dostu" proqramı çərçivəsində ictimai işlə təmin edilməsi müsbət sosial-ictimai hadisədir.

Bura o şəxslər cəlb edilir ki, onların müasir bazar tələblərinə cavab vermək üçün fiziki, əqli göstəriciləri imkan vermir. Lakin həmin insanlar ictimai işlərdə çalışmaqla öz sosial vəziyyətlərini düzəldəcəklər, eyni zamanda, faydalı işlərlə məşğul olacaqlar. İşsizlərin əməyindən ictimai işlərdə istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu insanlar parklarda, yollarda, başqa ictimai əhəmiyyət daşıyan yerlərdə işləyəcəklər".

R.Atakişiyev vurğuladı ki, ölkə başçısının təşəbbüsü ilə reallaşan bütün sosial-ictimai layihələr, proqramlar əhalinin sosial rifahının yüksəlməsinə səbəb olub.

*İradə SARIYEVA*

# Azərbaycanda sənaye əhəmiyyətli meşələr salınması nə deməkdir...

**Azərbaycanda sənaye əhəmiyyətli meşələr salına bilər. Bu barədə Meşələrin İnkişafı Departamentinin direktoru Ağaqardaş Qaraşov media nümayəndələrinə açıqlamasında bildirib.**



***Natiq Cəfərli:** "Texniki ağaclar əkilən zaman müasir texnoloji qaydalara əməl olunmalıdır ki, istənilən nəticə əldə olunsun"*

*"Sənaye əhəmiyyətli meşələr salınarsa, bu sektor ölkəyə kifayət qədər gəlir gətirər"*

O qeyd edib ki, yaxın vaxtlarda Azərbaycanda sənaye əhəmiyyətli meşələrin salınması planlaşdırılır. Bu məqsədlə tez böyüyən ağac cinslərindən istifadə olunacaq ki, həmin ağaclar kəsilib ağac emalı sənayesinin inkişafında davamlı olaraq istifadə olunsun: "Meşə təsərrüfatından sənaye məqsədlərilə istifadə üçün yaxın perspektivdə bu sahədə geniş işlərin görülməsi nəzərdə tutulub. Fiziki və hüquqi şəxslərə, iş adamlarına tövsiyə edirik ki, özlərinə məxsus torpaq sahələrində bu tip ağac cinslərini yetişdirsinlər. Bu işdə biz Ekologiya və Təbii Sərvətlər Nazirliyi olaraq bütün müraciətlərə açığıq. Öz tövsiyələrimizi verə və ağac cinslərinin seçilməsində kömək edə bilərik. Eyni zamanda, meşə fondunun açıq sahələri də bu məqsədlə sahibkarlara icarəyə verilə bilər".

Azərbaycanda sənaye əhəmiyyətli meşələrin salınmasının vacibliyi barəsində fikir bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu sahə üzrə ən qabaqcıl ölkə Finlandiyadır. Texniki təyinatlı meşələrin salınması üzrə adıçəkilən ölkə ciddi texnoloji üstünlüklər əldə edib. Məlumdur ki, bir neçə il ərzində texniki ağac növləri yetişir. Həmin ağaclardan həm mebel sənayesində, həm də kağız və karton məmulatlarının hazırlanmasında istifadə olunur. Finlandiya ilə yanaşı, Estoniyada da sənaye əhəmiyyətli meşələr geniş yayılıb. Azərbaycanda da belə bir addımın atılması müsbət haldır. O ağaclar əkildikdən sonra onların emal olunması da həll olunmalıdır. Bunun üçün xüsusi infrastruktur yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, o tip ağaclar gəlir gətirən sahədir. Çin və digər ölkələr xammal kimi aldıqları ağac məhsullarını emal etdikdən sonra həmin məhsulu hazır formada 3-4 dəfə artıq qiymətə Rusiya bazarına satırlar".

**Həmsöhbətimiz onu da vurğuladı ki, texniki ağaclar əkilən zaman müasir texnoloji qaydalara əməl olunmalıdır ki, istənilən nəticə əldə olunsun. İnfrastruktur qurularsa, qeyd olunan sahəni kifayət qədər gəlirli sahəyə çevirmək olar.**

*Günel CƏLİLOVA*

# Fikrət Yusifov və Əli Məsimli "Moody`s Investors Service" reytinq agentliyinin Azərbaycanla bağlı hesabatını şərh edir...

**"Ölkədə həyata keçirilən sistemli iqtisadi islahatlar qeyri-neft sektorunun rəqabətqabiliyyətli və dayanıqlı inkişafına təkan verəcək. Bu da həm idxal etdiyimiz məhsulların xeyli hissəsinin Azərbaycanda istehsalını mümkün edər, eləcə də qeyri-neft sektorunun ötənilki 1,7 milyard dollarlıq ixrac potensialını yaxın illərdə 2-3 dəfə artırmağa imkan verər".**




Bu fikirləri Milli Məclisin deputatı Əli Məsimli "Moody` s Investors Service" reytinq agentliyinin Azərbaycanla bağlı hesabatını "vergiler.az"a şərh edərkən deyib.

Millət vəkili bildirib ki, həllinin sürətləndirilməsi vacib olan məsələ təkcə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində görülən işlərin qeyri-neft sektorunun bundan sonrakı inkişafını da stimullaşdırılmasına yönəldilməsi deyil: "Bu çox zəruridir, amma məsələyə kompleks yanaşılmalıdır. Məsələn, vergi islahatları ilə bağlı həyata keçirilən işlər korrupsiya, inhisarçılıq və ondan qaynaqlanan, ölkənin sosial-iqtisadi tərəqqisinin qarşısında buxova çevrilən neqativlərin aradan qaldırılmasına yönələn işlərin genişləndirilməsini tələb edir. Bunun əsas yolu islahatları dərinləşdirməkdən, iqtisadiyyatın liberallaşdırılması və rəqəmsallaşdırılmasının gücləndirilməsindən, idarəetmə sistemində çevikliyin, şəffaflığın, hesabatlılığın və məsuliyyətin artırılmasından, "kölgə iqtisadiyyatı"nın dairəsinin məhdudlaşdırılmasından və s. bu kimi məsələlərin həllindən keçir".

Ə.Məsimli, xüsusən qeyri-neft sektorunun inkişafına əlavə təkan vermək üçün bankların real sektorla əlaqəsinin gücləndirilməsi məsələsinin xüsusi önəm daşıdığını vurğulayıb. Bu məsələnin həlli, digər şərtlərlə yanaşı, bank faiz dərəcələrinin istehsalla məşğul olan sahibkarlar üçün əlçatan səviyyəyə qədər aşağı salınmasından, əlverişli biznes mühitinin yaradılmasından və s. zəruri şərtlərdən çox asılıdır. Son illərdə kredit qoyuluşlarının artmağa başladığını deyən millət vəkili yenidən real sektorun inkişafına yox, istehlak kreditlərinə üstünlük verildiyini bildirib: "2015-2016-cı illərdə bunun yaratdığı fəsadlar hələ də tam aradan qaldırılmayb. Kredit faiz dərəcələrinin aşağı salınması və bank sisteminin real sektorla əlaqəsinin gücləndirilməsi istiqamətində ciddi islahatlar aparılmasına ehtiyac var. Sadalanan amillərin sistemli şəkildə həyat keçirilməsi qeyri-neft sektorunun rəqabətqabiliyyətli və dayanıqlı inkişafına təkan vermiş olar. Bu da həm idxal etdiyimiz məhsulların xeyli hissəsinin Azərbaycanda istehsalını mümkün edər, həm də qeyri-neft sektorunun icrac potensialını yaxın illərdə 2-3 dəfə artırmağa imkan verər. Nəticədə həm yerli istehsal genişlənər, həm də Azərbaycana neftdən əlavə digər sahələrdən də xeyli valyuta daxil olması təmin edilər. Eyni zamanda, "manatın taleyinin neftdən asılılığı" kimi təhlükəli problemi aradan qaldırmış olarıq".

Bir çox MDB ölkələrində institusional mühitin keyfiyyəti,aparılan iqtisadi islahatlar və tərəqqi tempi ilə bağlı "Moody's Investors Service" beynəlxalq reytinq agentliyinin yeni hesabatında deyilir ki, son illər ərzində MDB ölkələri islahatların həyata keçirilməsində əhəmiyyətli dərəcədə irəliləyiş əldə ediblər və bu, müxtəlif səviyyələrdə olmasına baxmayaraq, dövlət qurumlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsini artırmağa kömək edib.

Hesabatda qeyd olunub ki, xarici və daxili çağırışlar, həmçinin 2014-2016-cı illərdə MDB ölkələrində baş verən siyasi hadisələr sürətli institusional islahatlara və dövlət idarəetməsinin səmərəliliyinə səbəb olan böhran hadisələrinin aradan qaldırılmasına yönəlmiş bir sıra hökumət təşəbbüslərinin katalizatoru olub.

Moody's" hesab edir ki, Özbəkistanda (B1, "sabit") və Ukraynada (Caa1, "sabit") islahatların praktiki tətbiq edilməsində çətinliklər, Qırğızıstanda (B2, "sabit") və Moldovada (B3, "sabit") daxili siyasi əngəllər, Qazaxıstanda (Baa3, "müsbət") və Azərbaycanda isə (Ba2, "stabil") stabil vəziyyət hökm sürür.

"Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri, iqtisadçı ekspert Fikrət Yusifov bildirib ki, Azərbaycan hökuməti 2014-2016-cı illərin iqtisadi və maliyyə böhranı fonunda ölkə iqtisadiyyatının neftdən asılılığını əsaslı şəkildə aradan qaldırmağı hədəfləyən ciddi bir islahat yolu seçib: "Bu gün Azərbaycanda aparılan islahatlar idarəetmənin sadələşdirilməsinə və biznes mühitinin münbitləşdirilməsinə önəmli şərait yaradır. Bunu beynəlxalq maliyyə institutları və reytinq agentlikləri də öz hesabatlarında xüsusi qeyd edirlər. Bir qədər öncə Dünya Bankının hesabatında ölkəmizdə aparılan islahatlara yüksək qiymət verilmişdi. Azərbaycan bu gün həyata keçirilən islahatların səviyyəsinə görə MDB ölkələri arasında birincilər sırasındadır. Bu günlərdə "Moody's Investors Service" beynəlxalq reytinq agentliyinin yeni hesabatında da son illər ərzində iqtisadi islahatların aparılması sahəsində əhəmiyyətli irəliləyişlərin əldə edildiyi qeyd olunur".

F.Yusifov qeyd edib ki, inkişaf yolunda atılan addımlar içərisində ən önəmlisi, bəlkə də birincisi vergi islahatlarıdır: "Bu islahatların fəlsəfəsi biznesin vergi yükünü azaltmaqla onun "kölgədə" olan hissəsinin leqallaşdırılmasına nail olmaq və bununla da vergi ödəyicilərinin sayını əsaslı şəkildə artıraraq büdcəyə daha çox vəsaitin daxil olmasına şərait yaratmaqdır. Böhrandan ötən müddət ərzində vergi islahatlarının qarşısında qoyulan bu vəzifələr nəzərdə tutulan nəticələri verdi. Bunu vergi daxilolmalarında qeyri-neft sektorunun payının getdikcə artması aydın şəkildə sübut edir.

Vergi yükünün optimallaşdırılması bütün zamanlarda sürətli iqtisadi inkişaf yolu seçmiş ölkələrin qarşısında dayanan bir nömrəli problem olub. Məhz bu problemi düzgün çözə bilən ölkələr inkişafın yüksək sürətlə getməsinə nail ola biliblər. Ortada onlarla belə təcrübə var. Bu səbəbdən də Azərbaycanda biznesin vergi yükünün azaldılması və vergiyə cəlb etməklə bağlı proseslərin iş adamlarının xeyrinə əsaslı şəkildə dəyişdirilməsi öz bəhrəsini verməkdədir. Bu gün sahibkar-vergi əməkdaşı münasibətləri yeni bir müstəvidə qurulub. Bu münasibətlərdə vergi daxilolmalarının təmin edilməsi üçün inzibatçılıqdan daha çox qarşılıqlı əməkdaşlığa, qarşılıqlı anlaşmaya üstünlük verilir. Bu isə vergi ödəyiciləri üçün olduqca mühüm bir məsələdir".

# ADPU-nun Quba Filialına yeni təyin olunan direktor Yusif Alıyev kollektivə təqdim edildi



**Sentyabrın 2-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba Filialına yeni təyin olunmuş direktor, dosent Yusif İmrayıl oğlu Alıyev kollektivə təqdim edilib.**

ADPU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, təqdimatda ADPU-nun Tədris işləri üzrə prorektoru, dosent Eldar Aslanov, filialın sabiq direktoru, professor Əli Allahverdiyev və filialın professor-müəllim heyəti iştirak edib.

Qeyd edək ki, ADPU-nun Quba Filialının direktoru, professor Əli Allahverdiyev öz ərizəsi ilə işdən ayrılıb və universitetdə digər vəzifəyə təyin olunub. Təhsil nazirinin müvafiq əmri ilə filial direktoru vəzifəsinə dosent Yusif Alıyev təyin edilib. Dosent Yusif Alıyev bu təyinata qədər ADPU-nun Elm və innovasiyalar şöbəsinin müdiri olub.

Tədbiri giriş sözü ilə açan professor Əli Allahverdiyev son illər ADPU-nun Quba Filialında əldə olunmuş uğurlu nəticələrdən danışıb. Sonra professor Əli Allahverdiyev sözü ADPU-nun Tədris işləri üzrə prorektoru, dosent Eldar Aslanova verib. Dosent Eldar Aslanov ADPU-nun rektoru, professor Cəfər Cəfərovun və öz adından kollektivi salamlayıb, ADPU-nun Quba Filialının uğurlarına görə sabiq director, professor Əli Allahverdiyevə və kollektivə öz təşəkkürünü bildirib, ADPU-nun Quba Filialına yeni təyin olunan direktor, dosent Yusif Alıyevi kollektivə təqdim edib, onun haqqında məlumat verib.

Daha sonra professor Əli Allahverdiyev sözü dosent Yusif Alıyevə verib. Çıxış edən director, dosent Yusif Alıyev Təhsil naziri Ceyhun Bayramova və ADPU-nun rektoru, professor Cəfər Cəfərova ona göstərdikləri etimada görə təşəkkür edib və bu etimadı doğruldaraq təhsilimizə dövlət tərəfindən göstərilən diqqət və qayğını filialda da davam etdirəcəyini bildirib.

**Daha sonra filialın Təbiət fənləri və onun tədrisi metodikası kafedrasının müdiri, dosent Güləddin Həmzəyev, Pedaqoji fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Qələmşah İdrisov və digərləri çıxış edib, son illər filialda professor Əli Allahverdiyevin rəhbərliyi ilə görülən işlərdən danışıb, dosent Yusif Alıyevə direktorluq fəaliyyətində uğurlar arzu ediblər.**

# "Paris Bistro" - qızsız gələn oğlanlardan əlavə 25 manat almaq məsələsinə restoran necə reaksiya verdi...

**Sosial şəbəkədə bir müştəri Bakıda yerləşən "Paris Bistro" restoranında gender bərabərliyinin pozulması haqqında məlumat yayıb. Şikayətçi bildirir ki, o, iki dostu ilə həmin restoranda əyləşmək üçün içəri daxil olub. Lakin ofisiant onları qapıda qarşılayaraq restoranda oturmaq üçün hər birinin 25 manat ödəməli olduğunu deyib:**




"Bunun yeni qayda olub-olmadığını soruşdum, cavab olaraq dedi ki, "xeyr, əvvəldən bizdə belə olub".

Telefon nömrələrinə zəng etdim və aydın oldu ki, 25 manat depozit ödəməli olmağımıza səbəb bizim oğlan olmağımızdır. Telefonda danışan şəxs dedi ki, hətta 10 nəfər kişi ilə 1 nəfər qadın gəlsəydi, depozit istənilməyəcəkdi. Bu da şəhərin ən müasir kafelərindən birində olan "gender ayrıseçkiliyi". 4 nəfər kişi bu restorana gediriksə, minimum 100 manat ödəməliyik. Nəyə görə? Kişi olduğumuza görə?".

Məsələni dəqiqləşdirmək üçün "Paris Bistro" restoranı ilə əlaqə saxladıq. Rertoranda çalışan şəxslərdən biri faktı təsdiqlədi: "Bəli, depozit restoranın terrasına tətbiq edilir. Axşam 6-dan sonra 3 nəfər bəy gələrsə, adambaşı 25 manat ödəməlidirlər. Amma yanlarındakı 4-cü şəxs xanım olarsa, depozit tətbiq edilmir. Bu, restoranın

***"Paris Bistro": "Axşam 6-dan sonra 3 nəfər bəy gələrsə, adambaşı 25 manat ödəməlidirlər, amma yanlarındakı 4-cü şəxs xanım olarsa, depozit tətbiq edilmir, bu, restoranın daxili qaydasıdır"***

***Fatimə Hacıbəyli: "Hansısa restorana bəy xanım olmadan daxil olarsa, ondan əlavə ödəniş tələb etmələri düzgün deyil"***

daxili qaydasıdır və başqa məsələlər var".

Qeyd edək ki, bu qayda əvvəllər bəzi diskotekalarda tətbiq olunurdu. O cür məkanlara oğlan tək gəlsə idi, ya içəri buraxılmır, ya da əlavə pul tələb olunurdu. Şəhərdə fəaliyyət göstərən "Paris Bistro" restoranına oğlan qarşı cins olmadan daxil olursa, ondan əlavə depozit tələb edilməsi gender bərabərliyinin pozulmasına səbəb olur.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində qeyd etdi ki, iaşə obyektlərində gender bərabərliyinin pozulması təəssüf doğurur: **"Restorana və ya əyləncə mərkəzinə qadın, qız olmadan bəy daxil olarsa, ondan əlavə ödəniş tələb etmələri düzgün deyil. Bu hal ilk növbədə istirahət etmək istəyən şəxslərin hüququnu pozur. Hansısa restoran belə bir qayda tətbiq edirsə, bu, milli mentalitetə yaddır. Bu qayda tezliklə ləğv olunmalıdır".**

***Günel CƏLİLOVA***

# Yas mərasimlərində daha bir mütərəqqi yenilik - yemək ləğv olunur

**Azərbaycanda yas mərasimləri keçirilərkən süfrə açılması, ehsan verilməsi uzun illərdir ənənə halını alıb. Bir neçə ildir yas mərasimlərində bol süfrələrin açılması ciddi şəkildə tənqid edilir. Lakin hələ də yas mərasimlərindən dəbdəbəli ehsan süfrələrini yığışdırmaq mümkün olmayıb.**



İctimaiyyət tərəfindən ciddi şəkildə müzakirə edilən bu məsələ israfçılıq, özünü göstərmə və s. kimi də qiymətləndirilir. Doğrudur, bəzi rayon və kəndlərdə yas mərasimləri zamanı yemək verilməsi dayandırılıb və hamı bir qayda ilə süfrəyə çay, limon, halva və xurma verir. Ancaq bu nümunələrin sayı elə də çox deyil.

Artıq yas mərasimlərində yeməyin yığışdırılması məsələsi rəsmiləşdirilməkdədir. Belə ki, "Dini etiqad azadlığı və dini qurumlar haqqında" qanun layihəsinin parlamentin payız sessiyasında qəbul olunacağı gözlənilir. Sözügedən qanun layihəsində ölkə boyu yas məclislərində yemək verilməsi qadağası da əks olunub. Qanun qüvvəyə mindikdən sonra ehsan süfrəsinə yeni qaydalar tətbiq ediləcək.

Ekspertlər hesab edirlər ki, yas mərasimlərində yeməyin yığışdırılması qadağası rəsmiləşərsə, bunun yalnız müsbət əhəmiyyəti ola bilər. Onların fikrincə, Azərbaycanda yas məclislərində verilən ehsanlar bir çox hallarda o qədər dəbdəbəli olur ki, yalnız spirtli içkinin olmamasına görə toylardan fərqlənir. Bu halın aradan qaldırılmasında qanun layihəsində əks olunan məsələnin rəsmiləşməsi mühüm rol oynayacaq. Bu gün paytaxda fəaliyyət göstərən mərasim zallarında qurulan ehsan süfrələrinin vətəndaşların, ölü sahiblərinin maddi xərcləri hesabına başa gəldiyini deyən ekspertlər qeyd edirlər ki, bir şəxsin vəfat etməsi ailəsinin ən az 10-15 min manat xərcləməsinə səbəb olur.

İlahiyyatçı İsmayıl Əhməd hesab edir ki, yas mərasimlərində yeməyin yığışdırılmasına nail olmaq əsasən maarifçilik işindən keçir. "Bu sahədə ciddi maarifçilik işləri aparılmalıdır ki, insanlar yas mərasimlərində israfçılığa yol verilməsinin mənfi hal olduğunu bilsinlər" - deyə bildirdi.

Qanun layihəsində əks olunan qadağaya gəlincə, ekspert bildirdi ki, bu iş maarifçilik yolu ilə həll edilsə daha effektiv olar.

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu isə "Bakı-Xəbər"ə bildirdi ki, yas mərasimlərində yeməyə qadağa qoyulması rəsmiləşərsə, bunun çox böyük əhəmiyyəti olacaq. "Bilirsiniz ki, uzun illərdir yas mərasimlərində yeməyin yığışdırılması məsələsi ilə bağlı fikirlər irəli sürürəm. Milli Məclisdə "Dini etiqad azadlığı və dini qurumlar

***İsmayıl Əhməd: "Bu sahədə ciddi maarifçilik işləri aparılmalıdır ki..."***

***Əhməd Qəşəmoğlu: "Bu məsələ rəsmi şəkildə qanunla tənzimləndikdən sonra inanın ki, bunun müsbət nəticələrini bütün cəmiyyət görəcək"***

haqqında" qanun layihəsində yas mərasimlərində yemək verilməsinə qadağa qoyulması ilə bağlı məsələnin yer almasını təqdir edirəm. Hesab edirəm ki, yas mərasimlərindən yemək tamamilə yığışdırılmalıdır. Bu məsələ rəsmi şəkildə qanunla tənzimləndikdən sonra inanın ki, bunun müsbət nəticələrini bütün cəmiyyət görəcək. Bəzən deyirlər ki, bu, mənəvi məsələdir və o maarifçilik yolu ilə həllini tapmalıdır. Lakin, göründüyü kimi, uzun illərdir yas yerində yeməyin yığışdırılması ilə bağlı maarifçilik işləri görülsə də, təbliğat aparılsa da, bu heç bir müsbət nəticə vermir. İnsanlar maarifçilik tədbirlərinə əhəmiyyət vermir, özlərini göstərmək üçün yas məclislərində bol ehsan verirlər. Belə məsələlərin maarifçilik yolu ilə deyil, inzibati qaydada həll edilməsi çox yaxşı haldır. Çünki maarifçiliyin işləmədiyi cəmiyyətdə inzibati qaydalar tətbiq olunmalıdır. Deyim ki, islamda ehsanla, yas məslislərində yemək verilməsi ilə bağlı heç bir göstəriş yoxdur. İslama görə, bizim ölüyə borcumuz onu kəfənləmək, cənazə namazı qılıb dəfn etməkdir. Yas məclislərində ehsan verilməsi, bolluca süfrə açılması sonradan quraşdırılıb. Fikrimcə, qanun qəbul edildikdən sonra yas məclislərindən yemək birdəfəlik yığışdırılacaq".

Ə.Qəşəmoğlu bildirdi ki, bu gün şəhərimizdə fəaliyyət göstərən mərasim evlərində möhtəkirliklə, insanların ciblərini soymaqla məşğul olurlar. Onun sözlərinə görə, mərasim evlərində qiymətlər çox bahadır və məclisdə iştirak edən adam sayına görə yas sahibindən pul alırlar. Yas süfrələrinə əsasən köhnə yeməklərin, dəfələrlə istifadə olunmuş məhsulların qoyulduğunu deyən Ə.Qəşəmoğlu hesab edir ki, qəbul edilməsi gözlənilən qanun bu məsələni də aradan qaldıracaq. Onun bildirdiyinə görə, yas məclislərində iştirak edən insanların başı yeməyə, çeşidli təamlara qarışdığından, onlar heç mollaya da qulaq asmırlar. Ə.Qəşəmoğlu təklif edir ki, bütövlükdə, Azərbaycanda milli adət-ənənələrimizə uyğun şəkildə yeni toy və yas modelləri hazırlansın.

***İradə SARIYEVA***

№ 156 (4054) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

5 SENTYABR 2019-cu il

# Əvvәllәr Marsda hava şәraiti isti vә yağışlı olub



**Astronomiya sahәsindәki mütәxәssislәr qәdim Marsda iqlim şәraiti haqqında tәsәvvür yaratmağa kömәk edәn tәdqiqat aparıblar.**

Mәlum oldu ki, bir zamanlar bu planet isti vә yağışlı olub. "Ted.az" bildirir ki, Qırmızı planetin öyrәnilmәsi çoxdan davam edir. Bu müddәt әrzindә alimlәr planetin sәthi, elәcә dә, indi mövcud olan iqlim şәraiti haqqında çox şey öyrәnә biliblәr. Ekspertlәr hәm dә artıq, bir zamanlar Marsda su olduğunu da bilirlәr. Mayenin hansı formada olduğu, hәlә dә, sirr olaraq qalır. Mövcud mәlumatları tәhlil edәrәk, astronomlar bir zamanlar Marsda çoxlu yağışlar olduğunu söylәyiblәr. Hәmçinin ehtimal var ki, planetdәki hava şәraiti kifayәt qәdәr isti olub. Sonra iqlim dәyişib vә bütün su donub. Tәdqiqatçılar ümid edirlәr ki, qәdim Marsdakı iqlim haqqında daha dәqiq mәlumatlar Qırmızı planetdә 2020-ci ildә baş tutacaq missiya sayәsindә әldә edilә bilәcәk.

## İşıqlı mәkanları sevәn vә müsbәt enerji yaradan kaktus...

**Kaktus әn çox yayılmış dibçәk bitkilәrindәn biridir. Onun müxtәlif formalı boz tikanlı növlәri var. Az qulluq tәlәb edәn dibçәk gülü hesab edilir, düşdüyü şәraitә dәrhal uyğunlaşır.**

Görkәmi cәlbedici olmasa da, evdә atmosfer yaradılmasında vә sakinlәrin sağlamlığında müsbәt rola malikdir. Sәhra bitkisi olduğuna görә istiyә davamlıdır. "AZƏRTAC" bildirir ki, orta әsrlәrdә kaktus avropalılar üçün ekzotik bitki sayılırdı. Amerika qitәsindә onu Astek mәdәniyyәtinin bir hissәsi hesab edir vә meyvәlәrini yeyәrәk bәzәk bitkisi kimi bağlarda әkir, ondan şәfa vasitәsi kimi istifadә olunur vә sehrli gücünә inanırdılar. Hәtta, onu qapı vә pәncәrәyә qoymaqla özlәrini müәyyәn qüvvәlәrdәn qoruduqlarını güman edirdilәr. Kaktus vegetativ üsulla - kökündәn cavan bitkilәri ayırmaqla çoxaldılır. Kökündәn ayrılmış kaktus digәr dibçәklәrdә dәrhal böyümәyә başlayır. Suya çox ehtiyac duymur, buna görә dә, onu torpaq hәddindәn artıq quruduqdan sonra sulamaq lazımdır. Yaz aylarında gübrәlәnәn kaktuslar uzun müddәt çiçәklәyir. İşıqlı mәkanları sevir. Dibçәklәri soyuq günlәrdә mütlәq temperaturu 15-16 dәrәcәdәn aşağı olmayan otaqda saxlamaq lazımdır. Bitkinin yeri işıq vә kölgә sevәn xüsusiyyәtindәn asılı olaraq seçilir. İsti aylarda güllәri açıq havada günәş işığı düşәn yerә qoymaq mәslәhәtdir. Kaktus özündә böyük miqdarda enerji saxlayır. O, becәrildiyi evdә mәnzil sahiblәrini mәnfi tәsirlәrdәn qoruyur, müsbәt enerji yaradır. Onu yerlәşdirmәk üçün әn yaxşı yer iş otağı, mәtbәx vә dәhlizdir. Kaktus әqli fәaliyyәti fәallaşdırır, düşüncәnin normallaşmasına kömәk edir. Miqren ağrılarını neytrallaşdırır, yoluxucu xәstәliklәr vә eroziya zamanı faydalı tәsir göstәrir. Onun iş otağındakı pәncәrә önünә qoyulması mәhsuldar iş şәraitinin tәmin edilmәsinә xidmәt edir.

**Elan**

Bәrdә rayonu, Mәmmәdli kәndi, Hәsәnov Gәray Əliş oğluna mәxsus, nömrә _0254. Kod_61000068 saylı torpağın mülkiyyәtә verilmәsinә dair Şәhadәtnamә itdiy üçün etibarsız sayılsın.

Bәrdә rayonu, Bala Qacar kәndi, Cәnnәtәliyev İlqar Köçәri oğluna torpağın mülkiyyәtinә dair nömrә 0013. Kod 6102348 saylı Dövlәt Aktı itdiyi üçün etibarsız sayılsın.




## "Nar"ın dәstәk olduğu peşәkar boksçular qәlәbә qazandılar

**"Nar"ın dәstәk olduğu Azәrbaycanın gәnc boksçuları Türkiyәnin Sakarya şәhәrindә keçirilәn peşәkar boks döyüşlәrindә inamlı qәlәbә qazanıblar. "Baku Fight Lab" boks klubunun yetirmәlәri olan Rauf Ağayev vә Nicat Hәsәnov Gürcüstan boksçularına qalib gәliblәr.**

Peşәkar boksda 69 kq çәki dәrәcәsindә ilk dәfә rinqә çıxan Nicat Hәsәnov Zaza Amiridze üzәrindә qәlәbә qazanaraq debüt görüşünü qәlәbә ilә bitirib. 52 kq çәki dәrәcәsindә çıxış edәn Rauf Ağayev isә rәqibi Mişiko Şubitidzeni artıq 3-cü raundda nokauta salaraq rәqibindәn tam üstünlüyünü nümayiş etdirib.

"Baku Fight Lab" bir neçә ay öncә yenidәn fәaliyyәtә başlamış Azәrbaycan Peşәkar Boks Federasiyasına daxildir. Federasiya promouter şirkәtlәrә boksçular arasında beynәlxalq sәviyyәli peşәkar döyüşlәr keçirmәyә imkan verir.

Qeyd edәk ki, "Nar", "Baku Fight Lab" (keçmiş "Rabitә") boks klubunun rәsmi tәrәfdaşıdır. Mobil operatorun dәstәyilә boks klubu valideyn himayәsindәn mәhrum vә aztәminatlı ailәlәrdәn olan uşaqlar üçün peşәkar tәlimlәr keçir. Gәnc boksçuların texniki tәchizatı "Nar" tәrәfindәn tәmin edilir, tәlimlәr isә klubun Dünya vә Avropa çempionu olmuş peşәkarlar tәrәfindәn keçirilir. Tәlimlәrin mәqsәdi ölkә gәnclәrinin zәrәrli vәrdişlәrdәn uzaq olması vә cәmiyyәtin layiqli üzvü kimi yetişmәsinә töhfә vermәkdir.




**Qoç** - Sizinlә manipulyasiya etmәk çox asandır. Siz xoşunuz gәlәn şeylәrә o qәdәr tez inanırsınız ki, bәzilәri bundan istifadә etmәyә bilmirlәr. Hәrdәn intuisiyanız sizә ehtiyatlı olmağı mәslәhәt görsә dә, siz buna qulaq asmağı lazım bilmirsiniz.


**Buğa** - Siz kәnar tәsirlәrә çox hәssassınız, istәnilәn şәraitә uyğun әhval-ruhiyyәyә ildırım sürәtilә düşürsünüz. Bir çox Buğalar özlәrindә gözlәnilmәz istedad vә qabiliyyәtlәr aşkarlayacaqlar.


**Əkizlәr** - Əqli әmәk, maraqlı fәlsәfi mövzularda düşüncәlәr üçün әlverişli gündür. Tәhsildә vә elmi tәdqiqatlarda uğur ehtimalı yüksәkdir. Yeni tanışlıqlar qurmaq olar. Amma istisnasız olaraq ağıllı, erudit, yaxşı tәhsilli adamlarla.


**Xәrçәng** - Vacib adamlarla görüş üçün münbit gündür. İş adamları sәrfәli sövdәlәşmәlәrә gedә bilәrlәr. Yeni nәyisә sınamaq vә әvvәllәr bacarmadığınız şeylәr öyrәnmәk üçün yaxşı gündür.


**Şir** - Bu gün daha çox romantik görüşlәr üçün münasibdir. Ulduzlar tәnha Şirlәrә sevgi macәraları vәd edirlәr. Artıq sevәnlәr isә münasibәtlәrә yeni vә hәr iki tәrәf üçün xoş nәsә әlavә edә bilәrlәr.


**Qız** - Əgәr sağlam düşüncә ilә hәrәkәt etsәniz vә enerjinizi dinc mәcraya yönәltsәniz, gün çox mәhsuldar keçәcәk. Ailә üzvlәri ilә mübahisәlәr mümkündür. Nәdәnsә? әtrafdakıları öz ideyalarınıza "yoluxdurmaq" o dәqiqә alınmır.


**Tәrәzi** - Gün uğursuz olacaq. Bunun әsas sәbәblәrindәn biri impulsivliyinizdir. Siz olduqca tez-tez, özü dә vaxtsız şәkildә emosiyalarınıza azadlıq verirsiniz, әtrafdakılarla münasibәtlәr göz görә-görә korlanıb.


**Əqrәb** - Kifayәt qәdәr uğursuz gündür. Tәәssüf ki, buna görә yalnız özünüzü günahlandıra bilәrsiniz. Özünüz hәyatınızı çәtinlәşdirir, әmәkdaşlıq etmәli olduğunuz adamlarla münasibәtlәri korlayırsınız.


**Oxatan** - Əlverişsiz mәrhәlә davam edir. Mәnfi tendensiyaların tәsirini yumşatmağın yolları barәdә düşünmәyin vaxtıdır. Ulduzlar cari işlәrdәn daha qlobal mәsәlәlәrә keçmәyi mәslәhәt görürlәr.


**Oğlaq** - Sövdәlәşmәlәr vә kommersiya fәaliyyәti üçün әlverişli gündür. Qadınlarla işlәmәk tövsiyә olunur: onlarla razılığa gәlmәk daha asandır. Gün istәnilәn irimiqyaslı layihәlәr, o cümlәdәn, başqa yerә köçmәk vә ya tikinti üçün münasibdir.


**Dolça** - Gün çox sakit keçәcәk. Gözlәnilmәzliklәr planlarınızı pozmayacaq. Çoxdandır әliniz qalxmayan işlәrlә mәşğul ola bilәrsiniz. Dostların әhatәsindә istirahәt sevinc bәxş edәcәk.


**Balıqlar** - Siz öz ambisiyalarınız vә xırda arzularınıza uyğun hәrәkәt edirsiniz. Bir çox Balıqlar sonradan peşiman olacaqları hәrәkәtlәrә yol verәcәklәr. Sizin üçün şirnikdirici şeylәrә müqavimәt göstәrmәk çәtindir.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Paralel dünya: mif, yoxsa reallıq?

**Şimali Karolina Universitetinin professoru Robert Lanz bildirib ki, ölümdәn sonra insanlar müәyyәn paralel mәkana düşürlәr vә yenidәn dirçәlmәk şansı әldә edirlәr.**

"Ölkә.az" xәbәr verir ki, alim insanın hәyatını yaxın gәlәcәkdә çiçәk açmaq üçün solmuş bitki ilә müqayisә edib. Lanz öz nәzәriyyәsini biosentrizm nәzәriyyәsinin kömәyi ilә sübut edib. Əvvәllәr ABŞ-ın Kaliforniya Universitetinin әmәkdaşları paralel dünyaların mövcud olduğunu bildiriblәr.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.